

Prezident İlham Əliyev Yeni növ koronavirusla (COVID-19) mübarizə ilə bağlı bir sıra sərəncamlar imzaladı 3



Prezident İlham Əliyev: «Bizim səhiyyə imkanlarımız və həkimlərin peşəkarlığı lazımi səviyyədədir» 3



Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatı 8


# TİBB qəzeti

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

№ 07-08 (695) 30 aprel 2020-ci il    Qəzet 1991-ci ildən nəşr olunur    www.tibbqazeti.az


## Prezident İlham Əliyev tibbi maska istehsalı müəssisəsinin açılışında iştirak edib




2

## Mehriban Əliyeva: «Tibb işçilərimiz hər gün igidlik nümunəsi göstərirlər»



8

## Türk Şurası ölkələrinin səhiyyə rəhbərlərinin onlayn görüşü keçirildi



9

## Operativ Qərargahın brifinqi keçirildi




11


ARASH MEDICAL COMPANY

Tel: (994 12) 530 15 15
530 41 67
530 41 68
Faks: (994 12) 530 44 44



www.arash.az


### Афоризм

*Мы должны признать очевидное: понимают лишь те, кто хочет понять.*

*Бернар Вербер*

# Prezident İlham Əliyev tibbi maska istehsalı müəssisəsinin açılışında iştirak edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Sumqayıt Kimya Sənaye Parkında «Bakı Tekstil Fabriki» MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsinin açılışında iştirak ediblər.**

Koronavirus pandemiyası ilə əlaqədar tələbatın kəskin artması səbəbindən bütün ölkələrdə tibbi ləvazimat və qoruyucu vasitələrin, o cümlədən maskanın böyük qıtlığı yaşanır. İstehsalçı ölkələr tibbi maska ixracını dayandırmaqla yanaşı, istehsal avadanlığı və xammalın ixracını da saxlayıblar. Koronavirus pandemiyasının qarşısının alınması ilə bağlı Azərbaycanda həyata keçirilən bütün işləri diqqət mərkəzində saxlayan Prezident İlham Əliyevin tapşırığına əsasən, aidiyyəti dövlət qurumları qısa müddətdə tibbi maska istehsalı avadanlığının və xammalın Azərbaycana gətirilməsinə nail olublar.

İqtisadiyyat naziri Mikayıl Cabbarov və «Bakı Tekstil Fabriki»nin rəhbəri Səkinə Babayeva dövlət başçısına və birinci xanıma müəssisə haqqında məlumat veriblər. Bildirilib ki, «Bakı Tekstil Fabriki» tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsi Sumqayıt Kimya Sənaye Parkının ərazisində müvafiq yerlə təmin edilib, ona Sənaye Parkının rezidenti statusu verilib. İstehsalçıya İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu vasitəsilə 1,2 milyon manat güzəştli kredit ayrılıb. Tibbi maskaların qablaşdırılması üçün xüsusi qutular da yerli istehsaldır. Tibbi maska istehsalı üçün Türkiyədən gətirilmiş müasir avadanlıq qısa müddətdə quraşdırılıb. 30-dan çox yeni iş yerinin yaradıldığı müəssisədə istehsal prosesi üçnövbəlidir. Burada İSO beynəlxalq standartlarına uyğun xammaldan istifadə olunmaqla birinci mərhələdə hər gün 120 min tibbi maska istehsal ediləcək. Maskalar qablaşdırıldıqdan sonra xüsusi avadanlıqla əlavə olaraq sterilləşdiriləcək. Yaxın günlərdə daha bir istehsal xətti qurulacaq və ikinci mərhələdə istehsal həcmi 2 dəfə artırılaraq, gündəlik istehsal 200-250 min tibbi maskaya çatdırılacaq. Müəssisənin məhsulları ilkin olaraq daxili bazarda tələbatı ödəməyə yönəldiləcək.

Dövlət başçısına və birinci xanıma Azərbaycanda istehsal olunan tibbi spirt, dezinfeksiya məhsulları və qoruyucu vasitələr barədə də məlumat verilib. Bildirilib ki, spirt məhsulunun qablaşdırılması və daşınması üçün müxtəlif həcmli qablar da yerli istehsaldır. Hazırda 6 şirkət dezinfeksiyaedici məhlullar istehsal edir.

Sonra Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən STEAM-Azərbaycan layihəsi çərçivəsində tibbi heyətin koronavirusdan qorunmaq üçün istifadəsi məqsədilə 3D printerlərlə çap olunan «üz sipəri» maskası və bir çox tibbi cihaz və avadanlıqların müxtəlif detallarının sınaq istehsalı haqqında məlumat verilib. Hazırda gün ərzində 150 ədəd bu cür maska istehsal olunur.



Müəssisə ilə tanışlıqdan sonra Prezident İlham Əliyev Azərbaycan xalqına müraciət edib.

Dövlət başçısı ölkəmizdə tibbi maska istehsalına başlanmasını çox əlamətdar hadisə adlandırıb, indi dünyanın bir çox ölkələrində, o cümlədən Azərbaycanda tibbi maska çatışmazlığının olduğunu deyib. Qeyd edib ki, biz bu sahədə daim idxaldan asılı idik. Amma indiki şəraiti nəzərə alaraq qısa müddətdə, cəmi iki həftə ərzində yerli istehsal təşkil edilib, yeni müasir istehsalat sahəsi yaradılıb və bu bizə özümüzü tibbi maskalarla böyük dərəcədə təmin etmək imkanı verəcək. Koronavirusla mübarizə başa çatandan sonra da Azərbaycan artıq idxaldan asılı olmayacaq.

Eyni zamanda, Azərbaycanda dezinfeksiya vasitələrinin istehsalı da qısa müddət ərzində ərsəyə gəlib. Ölkəmizdə olan bir neçə spirt zavodunda dezinfeksiya vasitələri istehsal edilməyə başlanıb və artıq satışa verilir. Beləliklə, mübarizəni daha da səmərəli şəkildə aparmaq üçün vətəndaşlara lazım olan tibbi maskalar və dezinfeksiya vasitələri bu gün artıq bazara təqdim edilir. Prezident İlham Əliyev bu sahədə süni qiymət artımı məsələsinə toxunub, bildirib ki, bu hallara qətiyyən yol verməli olmaz: «Əgər süni qiymət artımı olarsa, bu işdə əli olan şəxslər ciddi cəzalandırılacaq. Çünki indiki pandemiya şəraitində belə addımlar xəyanət kimi qəbul ediləcək».

Ölkə rəhbəri qeyd edib ki, son illərdə yüzlərlə sənaye müəssisəsi açılsa da, bu istehsalat sahəsi xüsusi əhəmiyyət daşıyır: «Çünki bu gün Azərbaycanda istehsal olunan tibbi maskalar və dezinfeksiya vasitələri insanlarımızı qoruyacaq. Bizim də əsas məqsədimiz ondan ibarətdir ki, insanlar bu xəstəliyə yoluxmasın, insanların sağlamlığı təmin edilsin və buna nail olmaq üçün bütün tədbirlər görülür.

Qabaqlayıcı tədbirlərin görülməsi nəticəsində Azərbaycanda hazırda koronavirus xəstəliyinin yayılması geniş vüsət almayıb. Dünyanın inkişaf etmiş ölkələrində gündə yüzlərlə insan vəfat edir və heç bir ölkənin səhiyyə sistemi bu artan xəstələrin müalicəsini tam təşkil edə bilmir. Bu bizim üçün də bir dərs olmalıdır. Ona görə Azərbaycanda qabaqlayıcı tədbirlərin görülməsi və vəziyyətə uyğun şəkildə bu addımların atılması bir məqsədi güdürdü ki, biz insanların həyatını, sağlamlığını qoruyaq və bu xəstəliyin Azərbaycanda geniş vüsət almasına imkan verməyək. Bu günə qədər görülmüş bütün tədbirlər öz səmərəsini verdi. Bircə onu demək kifayətdir ki, Azərbaycanda bu günə qədər 45 min test keçirilib. İndi müxtəlif internet resurslarında bütün ölkələrdə həm xəstələrin sayı, həm ölüm hallarının sayı, eyni zamanda, keçirilmiş testlərin sayı göstərilir. Hər bir insan o saytlara girib baxa bilər. Azərbaycan dünyada aparıcı ölkələrdəndir ki, bu qədər test keçirib. Bu bizə imkan verdi ki, xəstəliyi müəyyən edək, xəstə insanlara operativ tibbi xidmət göstərək və eyni zamanda, özümüzü böyük bəladan qoruya bilək. Bu günə qədər biz buna müvəffəq olmuşuq. Eyni zamanda, operativ tədbirlərin görülməsi və vəziyyətə uyğun addımların atılması öz səmərəsini göstərmişdir».



«Biz həm milli birlik, həm həmrəylik nümayiş etdirmişik və məsuliyyət də nümayiş etdirməliyik», — deyən Prezident İlham Əliyev ciddi karantin rejimi şəraitində nizam-intizamın vacibliyini vurğulayıb: «Əminəm ki, vətəndaşlar bu qaydalara tam əməl edəcəklər və beləliklə, xəstəlik geniş vüsət almayacaq, biz bu vəziyyətdən az itkilərlə çıxa biləcəyik».

Dövlət başçısı hazırda 20-dən çox xəstəxanada koronavirus xəstələrinin müalicə edildiyini, onların arasında martın əvvəlində istifadəyə verilmiş, ən müasir xəstəxana olan «Yeni klinika»nın, bu il bölgələrdə açılmış Qazax, Goranboy və Şəmkir rayon mərkəzi xəstəxanalarının da olduğunu deyib: «Beləliklə, cəmi bir ay ərzində mindən çox çarpayılıq, ən müasir standartlara uyğun tibbi müəssisələr istifadəyə verildi və orada koronavirus xəstələri müalicə alırlar».

Azərbaycan Prezidenti bildirib ki, dövlətimizin və sahibkarların operativ fəaliyyəti sayəsində yaxın zamanlarda Bakıda və bir neçə bölgədə yeni texnologiyalar əsasında, yığma üsulu ilə müasir xəstəxanalar inşa ediləcək və avadanlıqla təchiz olunacaq. Hər biri 200 çarpayılıq belə xəstəxanaların ölkəmizdə qısa müddətdə qurulması bu mübarizədə bizə əlavə imkan verəcək: «Vaxt amili, həkimlərin peşəkarlığı, bizim imkanlarımız — bütün bu amillərin vəhdəti bu gün imkan verir ki, Azərbaycan hələ də az itkilərlə bu vəziyyətdən çıxır».

Prezident İlham Əliyev söyləyib ki, xaricdə yaşayan və xaricdə olan Azərbaycan vətəndaşlarının ölkəmizə gətirilməsi istiqamətində atılan operativ addımlar nəticəsində böyük nailiyyətlər əldə edilib. Bu günə qədər 15 minə yaxın Azərbaycan vətəndaşı xarici ölkələrdən təxliyə olunub və onların böyük əksəriyyəti karantinə yerləşdirilib. Hazırda karantində qalan vətəndaşların sayı 4500-dür. Karantin üçün ən məqbul yerlər müəyyən edilib. Karantin rejimində olan insanlara gündəlik yemək verilir, onlar tibbi müayinədən keçirlər. Onların mütləq əksəriyyəti yaradılmış vəziyyətdən çox razıdırlar, dövlətə və həkimlərə minnətdarlıqlarını bildirirlər: «Bir sözlə, Azərbaycan dövləti bu ciddi vəziyyətlə üzləşərək yenə də öz gücünü göstərdi. Onu göstərdi ki, bizim əsas vəzifəmiz xalqımızı, dövlətimizi qorumaqdır. Buna nail olmaq üçün istənilən addımların atılması mümkündür və biz bunu edirik. Operativ tədbirlər nəticəsində imkan vermədik ki, bu bəla ölkədə geniş vüsət alsın».

Müraciətinin sonunda dövlət başçısı əhaliyə çağırış edib: «İnsanların sağlamlığı, təhlükəsizliyi, rahatlığı və rifahı bizim üçün hər şeydən üstündür. Biz bunu bir daha nümayiş etdiririk. Bütün Azərbaycan vətəndaşlarına bir daha çağırış edib demək istəyirəm: Məsuliyyətli olun, nizam-intizamı, qaydaları pozmayın, özünüzü, uşaqlarınızı, yaxınlarınızı qoruyun ki, biz bu ağır vəziyyətdən az itkilərlə çıxa bilək! Biz birlikdə güclüyük!»

## İ.H.İsayevin 2-ci dərəcəli «Əmək» ordeni ilə təltif edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda səhiyyənin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə İsa Hüseyn oğlu İsayev 2-ci dərəcəli «Əmək» ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 14 aprel 2020-ci il.*

## Koronavirus pandemiyası ilə mübarizənin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, koronavirus pandemiyasına qarşı mübarizə sahəsində ölkədə həyata keçirilən səhiyyə tədbirləri çərçivəsində tibb müəssisələrinə və tibbi avadanlığa artan tələbatın qarşılanması və infeksiyaya yoluxmuş xəstələrin müalicəsinin səmərəli təşkili məqsədilə **qərara alıram:**

**1.** Hər birində 200 çarpayı olan modul tipli 6 (altı) xəstəxananın quraşdırılması məqsədilə «Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü»nün 1.66-cı bəndində göstərilmiş məbləğin 14,8 milyon (on dörd milyon səkkiz yüz min) manatı Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 7 aprel 2020-ci il.*

## Koronavirus pandemiyasına qarşı Azərbaycan Respublikasında həyata keçirilən səhiyyə tədbirləri çərçivəsində zəruri tibbi avadanlığın və digər tibbi vasitələrin tədarükü üçün vəsait ayrılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Koronavirus pandemiyasının yayılmasının qarşısının alınması və onunla mübarizənin gücləndirilməsi məqsədilə zəruri tibbi avadanlığın və digər tibbi vasitələrin tədarükü üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə 97,0 (doxsan yeddi) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 9 aprel 2020-ci il.*

# Prezident İlham Əliyev: «Bizim səhiyyə imkanlarımız və həkimlərin peşəkarlığı lazımi səviyyədədir»

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev və İqtisadiyyat naziri Mikayıl Cabbarovun iştirakı ilə videobağlantı formatında iclas keçirib.**

Dövlət başçısı iclasda çıxış edərək bildirib ki, Azərbaycanda vəziyyət nəzarət altında olsa da, pandemiyanın davam etdiyi şəraitdə vəziyyətə uyğun şəkildə tədbirlər görülməlidir. Prioritet məsələ insanların sağlamlığı, həyatı və sosial müdafiəsidir. Eyni zamanda, iqtisadi sahəyə də çox diqqət vermək lazımdır, çünki xəstəliyin və ondan yaranan fəsadların böyük maliyyə vəsaiti tələb etdiyi pandemiya dövründə güclü iqtisadi imkanlar olmasa, sosial siyasəti uğurla aparmaq mümkün olmaz: «Bu böyük bəla bütün dünyanı böyük sınaq qarşısında qoyub. Bu günə qədər dünyada 140 mindən çox insan həyatını itirib və bu xəstəlik sərhədlər tanımır. Əgər ilkin mərhələdə bu xəstəlik Azərbaycana xaricdən gətirilibsə, hazırda daxili yoluxma prosesi gedir. Ancaq bildirməliyəm ki, sərt və qabaqlayıcı tədbirlər nəticəsində biz bu vəziyyəti nəzarət altında saxlaya bilirik. Son üç-dörd günün statistikası müəyyən mənada nikbinlik üçün əsas yaradır. Bildirməliyəm ki, son günlərdə yoluxanların sayı ilə sağalanların sayı arasında dinamika artıq müsbətdir. Yəni daha çox insan sağalır, nəinki bu xəstəliyə yoluxur. Bunun başlıca səbəbi görülmüş tədbirlərdir. ...Əgər biz vaxtında qabaqlayıcı tədbirlər görməsəydik, bu gün Azərbaycanda xəstələrin sayı min yox, bəlkə on min, iyirmi min, bəlkə də daha çox olardı.

Biz indi inkişaf etmiş ölkələrin təcrübəsini görürük. Bu ölkələrdə səhiyyə sistemi bir çox ölkələr üçün həmişə nümunə olub. Amma demək olar ki, böyük imkanlara malik ölkələrin səhiyyə sistemi böhran içindədir. Bu da təbiidir. Çünki xəstəliyin yayılma sürəti o qədər genişdir, xəstəlik o qədər tez yayılır ki, heç bir ölkənin səhiyyə sistemi buna davam gətirə bilməz, o cümlədən Azərbaycanın. Ona görə bizim əsas məqsədimiz yoluxma hallarında müşahidə olunan artımın qabağını almaq idi, yoluxma zəncirini qırmaq idi. Görülmüş bütün tədbirlər bu məqsədi güdürdü ki, biz bu vəziyyətdən az itkilərlə çıxaq, vətəndaşlara kömək göstərək, onları bu bəladan qoruyaq və onların sosial müdafiəsini təmin edək. Bu günə qədər həm məhdudlaşdırıcı tədbirlərin görülməsi, bu tədbirlərin mərhələ-mərhələ sərtləşdirilməsi, eyni zamanda, pandemiyadan ziyan çəkmiş sahələrdə çalışan insanların sosial müdafiəsinin təmin edilməsi, hesab edirəm ki, bizim düzgün siyasətimizi əks etdirir».

Prezident İlham Əliyev bildirib ki, vəziyyəti nəzarətdə saxlamaq, müsbət dinamikanın nə qədər çəkəcəyini, davamlı olub-olmayacağını müşahidə etmək, buna uyğun əlavə tədbirlər müəyyənləşdirmək lazımdır.

Bir çox hallarda ölkələrin bu bəla ilə təkbaşına mübarizə apardığını söyləyən dövlət başçısı Azərbaycanın bu sahədə həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə həmrəyliyin gücləndirilməsi üçün çox önəmli addımlar atdığını qeyd edib, ölkəmizin hazırda sədrlik etdiyi Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının pandemiya ilə mübarizəyə həsr olunmuş Zirvə görüşünü dünya miqyasında ilk belə videokonfrans kimi yüksək qiymətləndirib.



Prezident deyib ki, mütəxəssislərin vahid fikrinə görə, karantin rejimi uzadılmalıdır: «Mən hesab edirəm ki, bu, düzgün addım olacaqdır. Çünki müsbət dinamika hələ ki ilk təzahürlərini göstərməkdədir. Biz bu dinamikanı dayanıqlı etməliyik». O vurğulayıb ki, karantin rejimindən mərhələli çıxış, tədricən yumşalma qabaqcadan planlaşdırılmalıdır.

Dövlət başçısı tibb işçilərinin əməyini yüksək qiymətləndirərək deyib: «Bizim həkimlərimiz insanlara kömək göstərmək üçün əllərindən gələni edirlər. Bildiyiniz kimi, bizim səhiyyə sistemimiz böyük sınaq qarşısındadır. Səhiyyə sistemimizin çökməməsi, ilk növbədə, onunla bağlıdır ki, biz xəstəliyin yayılma sürətini nəzarət altında saxlaya bildik. Əgər bu, nəzarətdən çıxsaydı, bizim səhiyyə sistemimiz buna davam gətirə bilməzdi. Bu gün inkişaf etmiş bəzi ölkələrin, ... insanları ümumiyyətlə müalicə etmək imkanı yoxdur. Bəzi xəstələr dəhlizlərdə yerləşdirilir, yerə uzadılır... Ən inkişaf etmiş ölkələrdə yüzlərlə, bəzi hallarda mindən çox insan vəfat edir. Nəyə görə? Sadəcə olaraq, səhiyyə sistemi buna davam gətirə bilmir, xəstəxanalarda yer yoxdur, bəzi hallarda lazım olan avadanlıq çatışmır. Əgər bu ölkələrin səhiyyə sistemi normal fəaliyyət göstərsəydi, o insanların böyük əksəriyyətinin həyatını xilas etmək olardı.

Bizim səhiyyə sistemimiz son illərdə böyük inkişaf yolu keçibdir və bu gün 20-dən çox dövlət xəstəxanasında koronavirus xəstələri müalicə olunur. Bu xəstəxanaların mütləq əksəriyyəti son 16 il ərzində tikilibdir. O cümlədən 575 çarpayılıq «Yeni klinika» bu gün ölkəmizin ən müasir səhiyyə ocağıdır və indi orada 100-dən çox xəstə müalicə alır. Eyni zamanda, Azərbaycan Tibb Universitetinin vaxtilə mənim təşəbbüsümlə tikilmiş Tədris Terapevtik və Cərrahiyyə klinikalarında da bir çox xəstə müalicə alır. Son illər ərzində bölgələrdə inşa edilmiş mərkəzi rayon xəstəxanalarında bir çox xəstələr müalicə alır. O cümlədən bu ilin mart ayında Goranboy, Qazax, Şəmkir şəhərlərində açılan 3 yeni xəstəxanada xəstələr müalicə alır, orada da 500 çarpayı imkanı vardır. Yəni mindən çox çarpayı ancaq mart ayında istifadəyə verilibdir. Mənim göstərişimlə hazırda ölkəmizdə modul tipli 10 xəstəxana inşa edilməkdədir. Hesab edirəm ki, bu xəstəxanalar işə düşəndən sonra yaxın 1-2 ay ərzində orada da 2 min əlavə çarpayı istifadəyə veriləcək.

Yəni biz bütün hazırlıq işlərini görürük. Biz indi həkimlərimizin peşəkarlığını əyani şəkildə görürük. Sirr deyil ki, səhiyyə işçilərinin fəaliyyətinə bəzi hallarda tənqidi yanaşmalar da müşahidə olunurdu. Sanki Azərbaycanın səhiyyə sistemi bərbad vəziyyətdədir, Azərbaycanda xəstələrə lazımi müalicə göstərilmir, imkanlı xəstələr xaricə üz tuturlar. Bəli, belə hallar var, təkcə Azərbaycanda yox, bizdən qat-qat zəngin olan ölkələrdən də imkanlı adamlar Avropanın, Amerikanın aparıcı klinikalarında müalicə alırlar. Bu, dünya praktikasıdır. Ancaq bu gün biz yalnız öz imkanlarımıza arxalanırıq. Bizim səhiyyə sistemimiz ancaq Azərbaycan həkimləri tərəfindən dövlət dəstəyi ilə inkişaf edir. Bu gün Azərbaycanda ən mürəkkəb əməliyyatların keçirilməsi, koronavirusla bağlı müxtəlif müayinələrin aparılması, 18 laboratoriyamız — bütün bunlar bizim gücümüzü artırır. Yəni bu gün tam əmin ola bilərik ki, bizim səhiyyə imkanlarımız və həkimlərin peşəkarlığı lazımi səviyyədədir. Göstərdikləri fədakarlığa, qəhrəmanlığa görə həkimlərə bir daha təşəkkürümü bildirirəm».

Nazir Sahib Babayev işsiz şəxslərə, aztəminatlı ailələrə dəstək barədə, haqqı ödənilən ictimai iş yerləri və özünüməşğulluq proqramları haqqında danışıb.

İqtisadiyyat naziri Mikayıl Cabbarov pandemiyadan zərər çəkmiş müəssisələrə və fərdi, o cümlədən mikrosahibkarlara dövlətin maliyyə dəstəyinin çatdırılması prosesi barədə, həmçinin Vergi Məcəlləsinə dəyişikliklər paketinin hazırlanması haqqında məlumat verib.

Prezident İlham Əliyev əminliyini bildirib ki, bu tədbirlərin görülməsi nəticəsində həm əhalinin sosial müdafiəsi gücləndiriləcək, eyni zamanda, sahibkarlara əlavə dəstək veriləcək, ən önəmlisi, insanların həyatı və sağlamlığı qorunacaq.

# Prezident İlham Əliyev: «Mənim seçimim birmənalıdır – insanların sağlamlığı»

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirə keçirilib.**

Toplantıda giriş nitqi söyləyən dövlət başçısı 2020-ci ilin uğurla başladığını deyib. Mart ayında koronavirusla bağlı müəyyən qədər tənəzzül olsa da, ilin 3 ayında bütövlükdə yenə də inkişaf, tərəqqi müşahidə olunub.

Koronavirusun böyük bəla olduğunu, 100 mindən çox insanın həyatına son qoyduğunu söyləyən Prezident İlham Əliyev dünyanın bütün ölkələrində bununla bağlı problemlər yaşandığını qeyd edib. Bildirib ki, qabaqlayıcı tədbirlər və düşünülmüş siyasət nəticəsində vəziyyət nəzarət altında saxlanır: «Əgər bu addımlar vaxtında atılmasaydı və biz düşünülmüş strategiya çərçivəsində məhdudlaşdırıcı rejimi mərhələli yollarla sərtləşdirməsəydik, bu gün xəstələrin sayı min yox, bəlkə də 10 min, bəlkə də 20 min ola bilərdi. Ən inkişaf etmiş ölkələrin təcrübəsi onu göstərir ki, heç bir ölkə özünü tam sığortalı hesab edə bilməz. Heç bir ölkənin səhiyyə sistemi bu xəstələrin artan dinamikasının qarşısında duruş gətirə bilməz. ... Bizim bütün addımlarımız ölçülüb-biçilmiş addımlardır və təsadüfi deyil ki, bir neçə ölkə bizim təcrübəmizdən yararlanıb oxşar addımlar atır».

Dövlət başçısı vurğulayıb ki, bundan sonrakı addımlar da elə atılmalıdır ki, insanların sağlamlığı və həyatı qorunsun. Qeyd edib ki, koronavirus pandemiyasının nə vaxt qurtaracağı ilə bağlı proqnoz vermək mümkün deyil. Buna görə pandemiyanın artıq təhlükə törətmədiyinə tam əminlik yaranana qədər həm ölkə daxilində vəziyyət tam nəzarətdə saxlanmalı, geniş monitorinq aparılmalı, həm də dünyada gedən proseslər müşahidə edilməlidir. Ancaq ondan sonra müəyyən dərəcədə yumşalma addımlarının atılması mümkündür: «Hələ demək tezdir, amma son günlərin rəqəmləri ümidvericidir. Ümid etmək istəyirəm ki, xəstələrin sayı ilə bağlı müsbət dinamika bundan sonra da davam edəcək».

Prezident İlham Əliyev ölkədə gedən iqtisadi və siyasi proseslərdən, iqtidar-müxalifət münasibətlərindən, Dağlıq Qarabağ münaqişəsindən, diplomatiyamızın beynəlxalq qurumlarda qazandığı uğurlardan söz açıb. Vurğulayıb ki, ilin sonuna qədər sosial sahədə heç bir proqram ixtisar edilməyəcək. Əksinə, koronavirusla bağlı ümumi dəstək paketi 2,5 milyard manat nəzərdə tutulur, ancaq bundan artıq olacaq. Təkcə lazımi avadanlıqların, ləvazimatların alınması üçün bu yaxınlarda Prezidentin ehtiyat fondundan 97 milyon manat ayrıldı. Bundan sonra da ilin sonunadək nə qədər lazımdırsa, ayrılacaq.

Ölkə rəhbəri bildirib ki, onun Sərəncamı ilə sosial, iqtisadi, maliyyə, makroiqtisadi vəziyyəti sabit saxlamaq üçün dörd işçi qrup yaradılıb. Müşavirədə bu qrupların rəhbərləri görülmüş işlərlə bağlı çıxış ediblər.



**Maliyyə naziri Samir Şərifov** çıxışında qeyd edib ki, ötən il ölkəmizin sosial-iqtisadi inkişafında əldə edilən nəticələr, aşağı inflyasiya və sabit milli valyuta şəraitində iqtisadi artımın sürətlənməsi və gəlirlərimizin artması cari ildə də bu müsbət meyillərin davam etməsi üçün əsaslı gözləntiləri formalaşdırıb. Bu gözləntilər bu ilin yanvar-fevral aylarında özünü tam doğruldub. Lakin COVID-19 pandemiyası və neftin qiymətinin düşməsi vəziyyətə kəskin təsir edib: «Bu qeyri-standart xarici mənşəli şoklar şəraitində Azərbaycan Respublikasının Prezidentinin bir çox dövlətlərə örnək olmuş erkən və qətiyyətli qərarları xəstəliyin ölkəmizdə yayılma sürətinin azaldılmasına, səhiyyə sistemimizin xəstəliklə mübarizə imkanlarının artırılmasına, bununla da insan həyatının qorunmasına yönəldilib. Qərarların həyata keçirilməsi üçün zəruri kadr, inzibati və maliyyə resursları səfərbər olunub. Dövlət başçısının tapşırığına müvafiq olaraq, xərclərin prioritetliyi yenidən qiymətləndirilib, mövcud büdcə qanunvericiliyi çərçivəsində ilkin olaraq bir sıra xərclərin ixtisarı və təyinatının dəyişdirilməsi, həmçinin Prezidentin ehtiyat fondu və digər ehtiyat mənbələri hesabına dövlət büdcəsindən koronavirusla mübarizə və iqtisadiyyata mənfi təsirlərin azaldılması tədbirlərinin maliyyələşdirilməsi üçün 1 milyard 350 milyon manat məbləğində vəsait ayrılıb. Bu vəsaitin 350 milyon manatlıq hissəsi bir sıra zəruri tibbi ləvazimatların və avadanlıqların təxirəsalınmadan alınması, dövlət və özəl tibb müəssisələrində çalışan tibb işçilərinə, cəlb olunmuş könüllülərə xüsusi əlavə və müavinətlərin ödənilməsi, ölkədə dezinfeksiya işlərinin genişləndirilməsi və digər tibbi ehtiyacların maliyyələşdirilməsinə yönəldilir».

**Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov** makroiqtisadi vəziyyətlə, bank sektorunda görülmüş və görüləcək işlərlə bağlı məruzə edib.

**Prezident İlham Əliyev** onun çıxışının müddəaları ilə bağlı qeyd edib ki, əsas məqsədimiz koronavirusla apardığımız mübarizədə qalib gəlmək, bu vəziyyətdən az itkilərlə çıxmaq, iqtisadiyyata az ziyan vurmaqdır: «Biz açıq-aydın başa düşürük ki, bu məhdudlaşdırıcı tədbirlər iqtisadiyyata ziyandır. Burada biz iki amil arasında seçim etməliyik — iqtisadi fəallıq, insanların sağlamlığı. Mənim seçimim birmənalıdır — insanların sağlamlığı. Ona görə bu məhdudlaşdırıcı addımlar atıldı. Biz, əlbəttə, bəri başdan bilirdik ki, bu, ...iqtisadi sahədə müəyyən narahatlığa gətirib çıxara bilər. Biz bunu şüurlu şəkildə etdik ki, insanlarımızı, onların həyatını qoruyaq. Çünki bundan daha qiymətli heç nə yoxdur».

**İqtisadiyyat naziri Mikayıl Cabbarov** çıxışında deyib ki, 2020-ci ilin ilk rübündə, yanvar-fevralda müşahidə edilən sağlam artım birinci rübün ümumilikdə müsbət fonda yekunlaşmasını şərtləndirib. Mart ayında isə pandemiya dünya enerji bazarlarında artım tempinə mənfi təsir edib və mütləq göstəricilərin enməsinə səbəb olub.

**Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev** sosial ödənişlər, məşğulluq, ölkə üzrə yaşayış minimumu olan 190 manat məbləğində birdəfəlik ödəmələr, işsizlikdən sığorta, özünüməşğulluq, ünvanlı sosial yardım, xüsusi həssas təbəqənin qorunması məsələləri və s. barədə məlumat verib.

**Kənd Təsərrüfatı naziri İnam Kərimov** xüsusi karantin rejimi dövründə aqrar sahənin inkişafı istiqamətində həyata keçirilmiş tədbirlərdən danışıb.

**Prezident İlham Əliyev** müşavirədə yekun çıxışında kənd təsərrüfatının müasir standartlara cavab verməsi, bu sahədə mikrokreditlərin verilməsi, quraqlıqla, iqlim dəyişikliyi ilə bağlı genişmiqyaslı layihələr kimi məsələlərə toxunub. Bildirib ki, koronavirus bizim iqtisadi və sosial planlarımıza müəyyən təsir etsə də, bizi əsas yolumuzdan döndərə bilməz: «Əlbəttə ki, indi bizim bütün səylərimiz koronavirusla mübarizəyə yönəldilib. Bu da təbiidir. Məhz bu məqsədlə mənim Sərəncamımla Baş Nazirin rəhbərliyi altında Operativ Qərargah yaradılıb. Qərargah çox səmərəli işləyir, 24 saat çalışır. Demək olar ki, mən də 24 saat əlaqədəyəm. Gün ərzində bəlkə də 5-6 dəfə zəngləşirik, danışırıq. Deyə bilərəm ki, əgər vaxtında bu addımlar atılmasaydı, əgər çox ciddi koordinasiya aparılmasaydı, bu gün biz daha da böyük problemlərlə üzləşə bilərdik. Biz özümüzü bu günə qədər çox böyük problemlərdən qoruya bildik. Son iki günün dinamikası, yəni xəstələrin və sağalanların sayı arasındakı dinamika müəyyən nikbinliyə yol açır. Amma mən vaxtı qabaqlamaq istəmirəm, hələ təhlil aparılır. Bildiyiniz kimi, karantin rejimi ayın 20-nə qədər qüvvədədir. Növbəti həftə ərzində həm Operativ Qərargah, həm bütün digər aidiyyəti qurumlar öz təkliflərini verməlidirlər ki, ayın 20-dən sonra biz hansı addımları atmalıyıq, karantin rejimi qüvvədə qalacaq, ya yox, qalacaqsa, hansı formada qalacaq, biz yumşalmaya nə vaxtdan başlaya bilərik. Biz bütün bunları gərək dəqiq biləк. Bir daha demək istəyirəm ki, əsas məsələ xalqımızı bu xəstəlikdən qorumaqdır. İqtisadiyyat bərpa olunar. Biz indi fəal işləyirik və işləyəcəyik ki, bu vəziyyətdən minimum itkilərlə çıxaq.

Koronavirusla bağlı addımlar ardıcıllıqla atılır. Bizdə indi 20-dən çox xəstəxanada xəstələr müalicə alır. Eyni zamanda, 4-5 ulduzlu otellərdə, o cümlədən Atletlər kəndində karantində olan vətəndaşlar yerləşdirilib. Biz artıq 70 mindən çox test keçirmişik və keçirilən testlərin sayına görə dünya miqyasında 30-cu yerlərdəyik. Həkimlərə diqqət göstərilir, onların maaşları 3, 4, 5 dəfə artırılıbdır. Biz maska istehsalına başlamışıq və bir müəssisə artıq fəaliyyətə başlayıb. Mənə verilən məlumata görə, digər müəssisə də fəaliyyətə başlayır. Bu da çox müsbət haldır. Əlavə 10 modul tipli xəstəxananın tikintisi artıq başlamışdır. Onlardan altısı dövlət, dördü isə özəl sektor tərəfindən inşa ediləcək. Bizim ən müasir xəstəxanamız — «Yeni klinika» keçən ayın sonunda istifadəyə verildi. Bu 575 çarpayılıq ən müasir klinikamız koronavirus xəstələrinin sərəncamına verildi. Mən klinikanın açılışında qeyd etmişdim ki, biz bu xəstəliyə görə bu klinikanı vaxtından bir qədər əvvəl istifadəyə verdik və o tədricən fəaliyyətə başlayır. Son məlumata görə, artıq bu klinikada 100 koronavirus xəstəsi müalicə alır. Deməli, orada çarpayıların istifadəyə verilməsi prosesi davam edir və bütün imkanlar maksimum səfərbər olunubdur.

Bizim bu sahədə görülən işlərə ən gözəl qiyməti Azərbaycan xalqı verir. Bir daha demək istəyirəm ki, mən minlərlə elektron məktub alıram. Bu məktublarda görülən işlərə görə minnətdarlıq ifadə olunur. Ümumdünya Səhiyyə Təşkilatı bizim gördüyümüz işlərə yüksək qiymət verərək Azərbaycanı koronavirusla mübarizə sahəsində nümunəvi ölkə adlandırıbdır.

Bütün bunlar deməyə əsas verir ki, biz bu bəlanı da dəf edəcəyik, bu mübarizədə qalib gələcəyik. Biz xalq olaraq artıq birlik, həmrəylik nümayiş etdirmişik, indi daha çox məsuliyyət və nizam-intizam nümayiş etdirməliyik. Belə olan halda biz bu ağır vəziyyətdən az itkilərlə və şərəflə çıxacağıq.

Azərbaycan xalqına cansağlığı və xoşbəxtlik arzulayıram».

# Prezident İlham Əliyev: «Həkimlərin fədakarlığı qürur hissi yaradır»

***Bütün Azərbaycan xalqı bir daha gördü ki, bizim həkimlərimiz öz həyatlarını, öz sağlamlıqlarını risk altına ataraq xəstələrin yanındadırlar, gecə-gündüz, fasiləsiz xəstələrə qulluq edirlər»***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Abşeron rayonunun ərazisində Xızı rayonunun Ağdərə kəndindən Sumqayıt şəhərinə çəkilən magistral qaz kəmərinin açılış mərasimində iştirak edib.**

SOCAR-ın prezidenti **Rövnəq Abdullayev** görülən işlər barədə dövlət başçısına məlumat verib.

Sonra Prezident İlham Əliyev magistral qaz kəmərinin açılışını edib və Sumqayıt şəhər ictimaiyyətinin bir qrup nümayəndəsi ilə görüşüb.

Dövlət başçısı görüşdə çıxış edərək, Sumqayıt şəhərinin dayanıqlı qaz təchizatı üçün yeni alternativ qaz xəttinin çəkilişinin əhəmiyyətini vurğulayıb, şəhərin inkişafından danışıb, onun ekoloji vəziyyətində müsbət dəyişiklikləri qeyd edib.

Prezident İlham Əliyev deyib: «Azərbaycan sosial dövlətdir və siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır. Bu gün koronavirus dövründə bizim əsas amalımız Azərbaycan xalqını bu bəladan qorumaqdır. Bizim qəbul etdiyimiz qərarlar, atdığımız addımlar həm ölkə əhalisi tərəfindən yüksək qiymətləndirilir, — mənə minlərlə təşəkkür məktubları gəlir, — həm də beynəlxalq təşkilatlar Azərbaycanı bu sahədə nümunəvi ölkə kimi göstərir. Ümumdünya Səhiyyə Təşkilatı bizim gördüyümüz işləri təqdir edir və açıq bəyan edir ki, Azərbaycan nümunəvi ölkədir. Biz dünya miqyasında birinci ölkə olmuşuq ki, koronavirusla mübarizə ilə əlaqədar tərəfdaş ölkələrlə Zirvə görüşü keçirdik. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans şəklində Zirvə görüşü bizim təşəbbüsümüzlə keçirilmişdir. Koronavirusla mübarizədə Azərbaycan xalqı bir daha gördü ki, sözümüzlə əməlimiz arasında fərq yoxdur. Vətəndaşların sağlamlığı, onların həyatı birinci dərəcəli məsələdir».

Dövlət başçısı Sumqayıt şəhərinin bundan sonra da birgə səylərlə inkişaf etdiriləcəyinə, daha gözəl şərait yaradılacağına əminliyini ifadə edib.

Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Sumqayıt şəhər filialının sədri **Tərlan Hacızadə** ulu öndər Heydər Əliyevin bu şəhərə xüsusi yanaşmasını xatırladıb. O, Sumqayıta göstərdiyi xüsusi diqqət və qayğıya görə Prezident İlham Əliyevə şəhər sakinləri adından minnətdarlığını bildirib.

Sumqayıt şəhər 1 nömrəli doğum evinin baş həkimi **Təranə Rəcəbli** dövlət başçısını salamlayıb və deyib ki, onun siyasətinin mərkəzində xalqımızın rifahı, sağlamlığı və əminliyi durur: «Biz bunun illərdir şahidiyik. Son aylarda dünyada tüğyan edən COVID-19 qlobal pandemiyası, əlbəttə ki, Azərbaycandan da yan keçmədi. Bu dövrdə Sizin atdığınız addımlar, verdiyiniz qərarlar bizə bir xalq kimi bu dövrü çox sabit və rahat keçirtməyə imkan verdi. Bu dövrdə bizim xalqımız az itkilər verib. Buna görə mən Sizə bir vətəndaş kimi, bir ana kimi, bir həkim kimi təşəkkür edirəm».



Baş həkim bəzi ölkələrin artıq bizim bu dövrdəki təcrübəmizdən faydalandığını söyləyib: «Ümumdünya Səhiyyə Təşkilatının, beynəlxalq təşkilatların Sizə təşəkkür etməsi bir vətəndaş kimi məndə böyük fərəh hissi yaradır. Bu dövrdə Sizin məhz iqtisadi sabitliyi deyil, əhalinin sağlamlığını üstün tutmağınız çox təqdirəlayiqdir». T.Rəcəbli fürsətdən istifadə edərək, Sumqayıtın 70 illik yubileyi ərəfəsində ona «Əməkdar həkim» fəxri adı verdiyinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib, etimadı doğruldacağını deyib: «Sizin rəhbərliyinizlə ölkəmiz, dövlətimiz daha böyük inkişaf yolu keçəcək. Bu pandemiya dövründə Sizin verdiyiniz qərarlarla qısa müddətdə laboratoriyaların açılması, modul tipli xəstəxanaların tikilməsi və yüksək standartlara uyğun «Yeni klinika»nın açılıb COVID-19 xəstələrinin müalicəsi üçün ayrılması bu infeksiya ilə mübarizəni gücləndirdi. Bu dövrdə Sizin və Mehriban xanımın həkimlərin yanında olmağınız, bizim sosial rifahımız üçün verdiyiniz qərarlar, nəinki bizim, bütün sakinlərin, aztəminatlı ailələrin, yaşlı nəslin yanında olmağınız bizi bir daha inandırır ki, xalq-hakimiyyət birliyi güclüdür və bu birlik bizi daha gözəl, işıqlı sabahlara çıxaracaq».

**Prezident İlham Əliyev** səmimi sözlərə görə təşəkkür edib: «Xahiş edirəm, mənim salamlarımı Sumqayıt həkimlərinə çatdırasınız. Mən artıq dəfələrlə demişəm ki, həkimlərin fədakarlığı qürur hissi yaradır. Bütün Azərbaycan xalqı bir daha gördü ki, bizim həkimlərimiz öz həyatlarını, öz sağlamlıqlarını risk altına ataraq xəstələrin yanındadırlar, gecə-gündüz, fasiləsiz xəstələrə qulluq edirlər. Mən demişəm, o geyimdə hətta hərəkət etmək belə çətindir. Onlar isə ayaqüstə, gecə-gündüz xəstələrin yanındadırlar. Xəstələrin sağalmasında həkimlərin çox böyük rolu var. Əlbəttə ki, görülmüş bütün tədbirlər və sizin də qeyd etdiyiniz kimi, müasir klinikaların koronavirus xəstələrinin sərəncamına verilməsi, təşkilati işlərin düzgün qurulması və qabaqlayıcı tədbirlər bizi, demək olar, bu böyük bəladan qorudu. Düzdür, itkilər də var, ancaq itkilər daha da çox ola bilərdi. Ona görə bütün qabaqlayıcı tədbirlərin görülməsi, indi həyat göstərir ki, düzgün addım idi.

Əlbəttə, mən həkimlərin fəaliyyətini bir daha qeyd etmək istəyirəm. Bildiyiniz kimi, artıq bir neçə şüar də əhali arasında çox təqdir edilir: «Biz birlikdə güclüyük!» və «Azərbaycan həkimlərinə eşq olsun!». Biz ölkəmizin müasir rəmzlərindən biri olan «Alov qüllələri»ndə də bütün həkimlərimizi alqışlamışıq. Bir məsələyə də toxunmaq istəyirəm. Bəzi hallarda Azərbaycan səhiyyə sisteminə müəyyən tənqidi yanaşmalar da müşahidə olunurdu. Hətta deyirdilər ki, xəstələr xaricə üz tutur, xaricdə müalicə almaq istəyirlər. İndi bir çox ölkələrdə imkanlı adamlar istəyirlər dünyanın ən inkişaf etmiş ölkələrinin xəstəxanalarına müraciət etsinlər. Ancaq bu gün nəyi görürük? Onu görürük ki, səhiyyə xidməti, tibb xidməti baxımından biz heç kimdən geri deyilik. Bu gün inkişaf etmiş ölkələrin səhiyyə sistemləri böhran içindədir, xəstələrə qulluq edə bilmirlər. COVID-19 xəstəliyinə düçar olmuş, amma vəziyyəti ağır olmayan insanlara nəinki tövsiyə edilir, göstəriş verilir ki, evdə otur. Onları xəstəxanalara götürmürlər, ən inkişaf etmiş ölkələrin xəstəxanalarında xəstələri dəhlizlərdə yerə uzadırlar. Ən inkişaf etmiş ölkələrdə artıq neçə gündür ki, yüzlərlə insan vəfat edir, yüzlərlə. Özü də elə ölkələr var ki, o ölkələrin əhalisi Azərbaycanın əhalisi ilə təxminən eynidir. Yüzlərlə — 200, 300, 400 insanın vəfat etməsi onu göstərir ki, o ölkələrin səhiyyə sistemi buna hazır deyil, bu yükü götürə bilmədi və faktiki olaraq çökdü.

Bu gün koronavirusla bağlı əsas problem odur ki, xəstəliyin geniş yayılması o ölkələrin mövcud olan səhiyyə potensialından daha geniş həcmlidir. Ona görə bizim əsas vəzifəmiz ondan ibarət idi ki, xəstəliyin geniş yayılmasına imkan verməyək. Biz bilirdik ki, bu xəstəlik bizə xaricdən gəlib. Artıq daxildə yoluxma prosesi başlayanda bilirdik ki, bu yoluxma prosesinin qabağını almaq tam mümkün olmayacaq. Amma məhdudlaşdırmaq, xəstələnmə zəncirini qırmaq, vaxt udmaq, bu vaxtdan istifadə edərək bütün bizim tibb sahəsini təşkilatlandırmaq, maska, dezinfeksiya vasitələri müəssisələrini işə salmaq üçün bizə vaxt lazım idi. Eyni zamanda, mənim göstərişimlə bizim ən qabaqcıl xəstəxanalarda koronavirus xəstələri yerləşdirildi, o cümlədən «Yeni klinika»da, Azərbaycan Tibb Universitetinin iki klinikasında. Və bu gün xəstələr 20-dən çox klinikada müalicə alırlar. Artıq bir həftədir ki, biz müsbət dinamikanı görürük. Nədədir bu dinamika? Yəni yoluxanların sayı sağalanların sayından azdır. Əsas budur. Artıq bu məhdudlaşdırıcı tədbirlərin nəticəsini biz görürük».

Dövlət başçısı təqdim olunan geniş sosial paketdən danışıb. Qeyd edib ki, mütəxəssislərin rəyi ilə məhdudlaşdırıcı tədbirlər müəyyən dərəcədə yumşaldılacaq: «Ancaq yenə də daim monitorinq aparılacaq. Əgər bu yumşalmadan sonra görsək ki, vəziyyət mənfi istiqamətə gedir, məcbur olub yenə də sərtləşdirəcəyik. Ona görə ki, əsas məsələ vətəndaşların sağlamlığıdır, onların həyatıdır».

Çıxışının sonunda Prezident İlham Əliyev bir daha tibb işçilərinə yüksək dəyər verib: «Bu vəziyyətdə insanların sağlamlığını qoruyan həkimlər və karantin rejiminə nəzarət edən polis işçiləri ən yüksək qiymətə layiqdirlər. Mən heç şübhə etmirəm ki, biz bu vəziyyətdən az itkilərlə çıxacağıq, İnşallah! Sağ olun».

# Prezident İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının

**Azərbaycan Respublikasının Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının koronavirus pandemiyası ilə mübarizə mövzusuna həsr olunmuş fövqəladə Zirvə görüşü keçirilib.**

Videokonfrans vasitəsilə baş tutan Zirvə görüşündə Azərbaycan Prezidenti İlham Əliyev çıxış edib.

**Prezident İlham Əliyev** öz çıxışına dövlət və hökumət başçılarını, həmçinin Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktorunu salamlamaqla başlayıb, Azərbaycanın sədr ölkə kimi irəli sürdüyü Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fövqəladə Zirvə görüşünün keçirilməsi təşəbbüsünü dəstəklədikləri üçün dövlət və hökumət başçılarına, eləcə də Zirvə görüşünə qoşulduğuna görə ÜST-nin Baş direktoru Tedros Adhanom Gebreyesusa təşəkkürünü bildirib.

Dövlətimizin başçısı xatırladıb ki, keçən ilin oktyabrında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Bakıda keçirilmiş VII Zirvə görüşündə Azərbaycan sədrliyi öz üzərinə götürüb və dərhal təşkilatın nüfuzunun artırılması, ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi istiqamətində fəaliyyətə başlayıb.

Koronavirus xəstəliyinin dünya boyunca yayıldığını və faciəvi nəticələrə gətirib çıxardığını söyləyən Prezident İlham Əliyev pandemiya səbəbindən ölkələrimizdə və dünyada həyatını itirənlərə rəhmət diləyib, onların yaxınlarına başsağlığı verib və yoluxanların tezliklə şəfa tapmasını arzulayıb. Bildirib ki, Türk Şurası, dövlət başçıları səviyyəsində COVID-19 pandemiyasına həsr olunmuş Zirvə görüşünü keçirən ilk beynəlxalq təşkilatdır.

Dövlət başçısı vurğulayıb ki, koronavirus pandemiyası qlobal təhlükə olduğu üçün qlobal cavab tələb edir: «Pandemiyanın ilk günlərindən etibarən bəzi ölkələr və beynəlxalq təşkilatların koronavirus qarşısında çaşqın qalmasının, özünəqapanma yolunu seçməsinin şahidi oluruq. Pandemiyanın dünyanı bürüdüyü indiki şəraitdə dünyanın həmrəyliyə və əməkdaşlığa ehtiyacı vardır».

Azərbaycanda koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üçün çevik və zəruri qabaqlayıcı addımların atıldığını, yaranmış şəraitə uyğun məhdudlaşdırıcı tədbirlər apardığını deyən Prezident İlham Əliyev Nazirlər Kabineti yanında Operativ Qərargahın yaradılmasını, bütün təhsil müəssisələrində tədris prosesinin dayandırılmasını, kütləvi tədbirlərin təxirə salınmasını, bir sıra sosial təcrid tədbirlərini əhatə edən xüsusi rejimin, sonra isə xüsusi karantin rejiminin tətbiqini qeyd edib: «Ticarət və əyləncə mərkəzlərinin fəaliyyəti dayandırılmış, park və ictimai istirahət yerlərinə insanların girişi qadağan edilmişdir. Şəhərlərarası nəqliyyatın və Bakı Metropoliteninin fəaliyyəti tam dayandırılmışdır. Aprelin 5-dən etibarən ölkədə hərəkət məhdudiyyəti tətbiq olunur. Bir sıra dövlət və özəl qurumların fəaliyyətinə cəlb edilmiş şəxslər istisna olmaqla, bütün digər vətəndaşların yaşayış yerini tərk etməsinə konkret müəyyən olunmuş hallarda və vaxt çərçivəsində SMS icazə sistemi vasitəsilə icazə verilir.

Azərbaycan pandemiyaya qarşı mübarizədə ilk günlərdən Ümumdünya Səhiyyə Təşkilatı ilə səmərəli əməkdaşlıq edir. Biz mart ayının əvvəlində təşkilatın mütəxəssislərini Azərbaycana dəvət etmişik. Qısa müddətdə dəvətimizə cavab verilmişdir. Belə ki, 9-13 mart tarixlərində təşkilatın aparıcı mütəxəssislərindən ibarət heyət ölkəmizdə səfərdə olmuşdur. Onlar ölkəmizdə vəziyyətlə tanış olaraq, görülmüş işlərə müsbət qiymət vermişlər. Ekspert missiyasının hazırladığı hesabatda da öz əksini tapmış tövsiyələr aidiyyəti dövlət qurumları tərəfindən nəzərə alınır.

**Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru, doktor Tedros Adhanom Gebreyesus** tərəfindən mart ayının 23-də mənə ünvanlanmış məktubda Azərbaycanda görülmüş işlərə yüksək qiymət verilmişdir. Azərbaycan pandemiyaya qarşı görülmüş tədbirlərə görə nümunəvi ölkə kimi dəyərləndirilmişdir.

Azərbaycan koronavirus pandemiyasına qarşı mübarizədə həm ölkə daxilində, həm də dünyada öz fəal rolunu oynayır. Azərbaycan qlobal həmrəylik nümayiş etdirərək koronavirusa qarşı mübarizədə Ümumdünya Səhiyyə Təşkilatına könüllü maliyyə yardımı ayırmışdır. Mart ayının 13-də Azərbaycan tərəfindən Ümumdünya Səhiyyə Təşkilatının strateji hazırlıq və cavab planı çərçivəsində COVID-19 müraciəti Fonduna könüllü maliyyə yardımının ayrılmasını nəzərdə tutan donor sazişi imzalamışdır. Biz Ümumdünya Səhiyyə Təşkilatının pandemiyaya qarşı qlobal mübarizədə oynadığı mühüm rolu yüksək qiymətləndiririk».

Prezident İlham Əliyev məlumat verib ki, 16 il ərzində Azərbaycanın səhiyyə sistemində köklü işlər görülüb, həkimlərin peşəkarlıq səviyyəsi yüksəlib, 750-dən çox səhiyyə ocağı tikilib və ya tam təmir olunub. Hər il Azərbaycanda 5 milyondan çox insan dövlət hesabına tibbi müayinədən keçir. Bildirib ki, koronavirus xəstələri 20-dən artıq dövlət xəstəxanasında müalicə olunurlar. Onların arasında bu günlərdə açılmış, ölkəmizin ən müasir xəstəxanası olan, 575 çarpayılıq «Yeni klinika», mart ayında ölkəmizin 3 şəhərində istifadəyə verilmiş, ümumi çarpayı sayı 500-dən çox olan üç yeni xəstəxana da var: «Qısa müddət ərzində 6-sı dövlət, 4-ü isə özəl sahibkarlar tərəfindən tikilməklə, hər birinin 200 çarpayı yeri olan 10 müasir modul tipli xəstəxananın istifadəyə verilməsi nəzərdə tutulur.

Həkimlərimizin və tibb işçilərimizin koronavirus xəstəliyinə qarşı mübarizədə xidmətlərini yüksək qiymətləndiririk. Koronavirus xəstələrinə xidmət göstərən həkimlərin maaşı 3, 4 və 5 misli məbləğində artırılıb. Bu, dövlət tərəfindən həkimlərə göstərilən qayğının təzahürüdür.

On beş mindən artıq Azərbaycan vətəndaşı müxtəlif ölkələrdən, o cümlədən dövlət hesabına təşkil olunmuş çarter reysləri vasitəsilə təxliyə edilmişdir. Ölkəyə qaytarılmış bütün vətəndaşlarımız dövlət hesabına 4 və 5 ulduzlu mehmanxanalarda, xüsusi karantin zonalarında yerləşdirilmişdir. Eyni zamanda, birinci Avropa Oyunları zamanı açılmış Atletlər kəndində də karantinə alınmış şəxslər yerləşdirilir.

Beynəlxalq ticarət daşımaları istisna olmaqla, qarşılıqlı anlaşma və əlaqələndirmə şəraitində qonşu dövlətlərlə yerüstü və hava nəqliyyatı bağlantıları müvəqqəti olaraq dayandırılmışdır. Digər ölkələrlə beynəlxalq hava sərnişin daşımaları da dayandırılmışdır.

İndiyə kimi ölkə üzrə 60 minə yaxın test keçirilmişdir. Əhalinin hər bir milyon nəfərinə düşən testin sayı 5200-dən artıqdır. Aparılan testlərin sayına görə dünyada 30-cu, hər milyon əhaliyə görə aparılan testlərin sayına görə 40-cı yerlərdəyik. Azərbaycanda testlərin aparılması üçün 18 laboratoriya fəaliyyət göstərir, onların 5-i yeni yaradılmışdır.

Hazırda dünyada tibbi ləvazimatların və avadanlıqların alınması problemə çevrilmişdir. İstehsal olunan avadanlıqlar və ləvazimatların satılması dövlətlər tərəfindən məhdudlaşdırılmışdır. Ona görə də daxili istehsal ehtiyacı yaranmışdır. Daxili tələbatı ödəmək üçün aprel ayının əvvəlində ölkəmizdə operativ şəkildə tibbi maska istehsalı müəssisəsi fəaliyyətə başlamışdır.

Mənim təşəbbüsümlə Azərbaycanda Koronavirusla Mübarizəyə Dəstək Fondu təsis edilmişdir. Hazırda bu fonda köçürülmüş ianələrin həcmi 110 milyon manatdan və ya 65 milyon dollardan artıqdır. Dövlət vəsaiti ilə bərabər, ayrı-ayrı şəxslərin, sahibkarların və təşkilatların fonda könüllü ianəsi həm də böyük rəmzi məna daşıyır. Bu, Azərbaycan cəmiyyətində olan həmrəyliyin nümunəsidir».

Prezident İlham Əliyev koronavirus pandemiyasının ölkə iqtisadiyyatına mənfi nəticələrinin aradan qaldırılmasına yönəldilmiş tədbirlərdən, həmçinin makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması məqsədilə görülən işlərdən danışıb. Bildirib ki, bu fövqəladə Zirvə görüşünün əsas məqsədi milli səviyyədə atılan addımlara dair təcrübə mübadiləsi aparmaq, lazım olan anda bir-birimizə dəstək göstərmək və xalqlarımız arasında həmrəyliyi möhkəmləndirməkdir: «Mövcud qlobal pandemiya şəraitində Türk Şurasının üzv dövlətləri özlərinə qapanmayıblar. Təşkilat olaraq Türk Şurası digər beynəlxalq təşkilatlarla əməkdaşlığa hazırdır. Azərbaycan ayrı-ayrı ölkələrə də öz dəstəyini göstərməkdədir».

Azərbaycan Prezidenti ölkələrimizin iqtisadiyyatı, ticarət münasibətlərimiz və idxal-ixrac əməliyyatları üçün nəqliyyat daşımalarının əhəmiyyətini vurğulayıb, onların fasiləsiz olaraq həyata keçirildiyini, pandemiyanın mənfi təsirlərinə baxmayaraq, ötən ilin eyni dövrü ilə müqayisədə artdığını söyləyib: «Səhiyyə xidmətləri sahəsində əməkdaşlığımız, o cümlədən tibb mütəxəssislərinin təcrübə mübadiləsi, birgə tibbi komissiyaların yaradılması üçün yaxşı imkanlar vardır. Bundan əlavə, sərnişin nəqliyyat daşımalarının müvəqqəti bağlanmasına görə ölkələrimizin ərazisində qalan bir-birimizin vətəndaşlarına dəstək və yardım göstərməyimiz vacibdir. Bizim gördüyümüz bu tədbirlər vətəndaşlarımızın sağlamlığının qorunması və pandemiyanın doğurduğu sosial-iqtisadi fəsadların yüngülləşdirilməsi, iqtisadiyyatlarımızın davamlı inkişafının təmin edilməsi məqsədi daşıyır. Ümid edirəm ki, ölkələrimiz və xalqlarımız bu ağır vəziyyətin öhdəsindən layiqincə gələcək və pandemiyaya qarşı qlobal mübarizəyə öz layiqli töhfəsini verəcəkdir».

Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Gebreyesus videokonfransa dəvət üçün, Cenevrədən bu Zirvə görüşünə qoşulmaq və Türk Şurasının üzv dövlətlərinə müraciət etmək imkanına görə təşəkkür edib.

ÜST rəhbəri Azərbaycan dövlətinin başçısına xitabən: «Hörmətli Prezident Əliyev, mən Azərbaycanda olarkən həqiqətən Sizin öz işinizə sədaqətinizin şahidi oldum», — deyib, pandemiya başa çatandan sonra yenidən ölkəmizi ziyarət edəcəyinə ümidvar olduğunu bildirib: «COVID-19 virusu həqiqətən qlobal miqyasda yayılıb. Siz və Sizin Şura bizimlə sıx əməkdaşlıq edirsiniz. Bu əməkdaşlıq xəstəxanaların imkanları, humanitar yardım, testlər, elmi, texniki biliklərin mübadiləsi, tibbi və texniki dəstək məsələlərini əhatə edir. Bu, sərhədaşırı əməkdaşlıq nümunəsidir. Pandemiyaya qarşı səmərəli mübarizə aparmaq üçün bizə bu lazımdır. COVID-19 meydana çıxandan bəri 100 gündən artıq vaxt keçib. COVID-19-un qlobal miqyasda yayılması səhiyyə sisteminə ciddi zərbə vurub, dünya iqtisadiyyatını sarsıdıb, ciddi sosial problemlərə gətirib çıxarıb. Ölüm göstəricisi qrip ilə müqayisədə 10 dəfə yüksəkdir. Bundan əlavə, virus olduqca yoluxucudur, çox sürətlə yayılır. Yoluxanların sayı 1,3 milyon, ölənlərin sayı 80 mindir. Əməkdaşlıq Şurasının üzvü olan 5 dövlət 36 min yoluxma və 750 ölüm faktı barədə məruzə ediblər. Bu, pandemiyadır. Bu, səhiyyə böhranından da artıqdır. Burada bütün hökumətlər, bütün cəmiyyət fəaliyyət göstərməlidir. Son 100 gündə COVID-19 göstərdi ki, hətta inkişaf etmiş, zəngin dövlətlər də zərər çəkiblər. Əlbəttə, görürük ki, əsas zərbə həssas ölkələrə dəyir. Belə olmaması üçün biz nə mümkündürsə, edirik. Əlbəttə, milli və submilli səviyyədə imkanlar pəncərəsi bütün ölkələrdə bağlanır. Bununla belə, biz əlimizdən gələni edirik. Yeri gəlmişkən, sizin ölkələrə də testləşdirmə avadanlığı və digər avadanlıq göndərmişik. Bu, ilin əvvəlindən olub. Əlbəttə, siz pandemiyanın müxtəlif mərhələlərindəsiniz. Lakin epidemiyanın səhiyyə sisteminə, sosial xidmətlərə və iqtisadi fəaliyyətə təsirini minimuma endirmək üçün hamı səyləri artırmalıdır. Sosial ünsiyyətin məhdudlaşdırılması məsələsinə gəldikdə, burada münasibət bildirmək üçün bir qədər vaxtımız var. Əlbəttə, bütün səviyyələrdə adekvat işi təmin etmək, bütün hadisələri, bütün əlaqələri izləmək lazımdır. Testləşdirmə vacibdir, ümumiyyətlə, səhiyyə sisteminə adekvat münasibəti təmin etmək lazımdır. Bu, həssas qruplara daha çox aiddir. Hamı üçün əsas xidmətlərin əlçatan olması təmin edilməlidir, əks halda epidemiyanı nəzarətdə saxlamaq çox çətindir, hamı

# pandemiya üzrə fövqəladə Zirvə görüşü keçirilib

təhlükəli vəziyyətə düşə bilər.

Milli strategiyalar 5 əsas sahədə beynəlxalq səviyyədə dəstəklənməlidir. Biz bu 5 sahəyə birinci dərəcəli əhəmiyyət veririk. Birincisi, adekvat münasibət bildirmək üçün biz potensialı artırmağı çox istəyirik. İkincisi, epidemioloji təhlili və risklər haqqında informasiyanı təmin etmək lazımdır. Daha sonra qlobal təchizatın əlaqələndirilməsi təmin edilməlidir. Növbəti məqam texniki və ekspert köməyi təqdim edilməsi, hər yerdə tibbi qüvvələrin səfərbər olunması və toplanmış biliklərin mübadiləsinin fəallaşdırılması ilə bağlıdır. Bizim strateji planımız var. Yaxın günlərdə onu dərc edəcəyik. Növbəti mərhələdə milli və beynəlxalq strategiyaların reallaşdırılması üçün çox ciddi resurslar lazımdır. Bu çağırışa cavab verənlərin hamısına təşəkkürümü bildirmək istərdim. 800 milyon dollar yardım göstərilməsi elan edilib. Bu, çox yaxşı faktdır.

Azərbaycan hökumətinə və Azərbaycan xalqına da verdikləri töhfəyə görə təşəkkür etmək istəyirəm. Həqiqətən, Azərbaycan 5 milyon dollar ianə verib. Türkiyə də sağ olsun. Avropalı qonşularınıza kömək edir, onlara əsas materiallar göndərirsiniz. Hamınıza təşəkkür etmək istərdim.

Gəlin həmrəylik layihəsində iştirak edək. Gəlin baxaq, hansı metodlar, hansı vasitələr daha səmərəli olub. Bu həmrəylik layihəsində artıq bir sıra ölkələr iştirak edirlər. Pandemiyaya son qoymaq üçün, əlbəttə, əməkdaşlığı və qarşılıqlı fəaliyyəti genişləndirmək lazımdır. Siz isə bunu edə biləcəyinizi göstərdiniz. Biz hamımız birlikdə bu vəziyyətə düşmüşük. Biz hələ uzun bir yol keçməliyik. Prezident Əliyevin indicə dediyi kimi, nə lazımdır – həmrəylik və qətiyyət. Biz bu ümumi təhlükəni birlikdə dəf edəcəyik».

**Prezident İlham Əliyev** ÜST-nin koronavirusa qarşı mübarizədə rolunu yüksək qiymətləndirdiyini bir daha qeyd edib: «Sizin rəhbərliyinizlə Ümumdünya Səhiyyə Təşkilatının bütün kollektivinə bu çətin və məsuliyyətli vəzifədə uğurlar arzulayırıq».

**Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev** çıxışına tədbirin təşəbbüskarı olan Azərbaycan Prezidentinə minnətdarlıq sözləri ilə başlayıb. Hazırkı Zirvə görüşünün çətin zamanda – pandemiya dövründə keçirildiyini qeyd edən Qazaxıstan dövlətinin başçısı vurğulayıb ki, bütün ölkələr səyləri birləşdirməlidir. Əsas məsələ pandemiyanın yayılmasının qarşısını almaq üçün atılacaq addımları müəyyənləşdirməkdir. Qazaxıstan Prezidenti ölkəsində virusun qarşısının alınması ilə bağlı görülən işlərdən danışıb. Bildirib ki, hazırkı vəziyyət qlobal iqtisadiyyatın inkişaf templərinə mənfi təsir edib, qlobal geosiyasi və iqtisadi vəziyyəti dəyişib.

**Qırğızıstan Respublikasının Prezidenti Sooronbay Jeenbekov** ilk növbədə koronavirus infeksiyasına qarşı mübarizədə bütün dünyaya uğurlar, tezliklə adi həyata qayıtmaq və dövlətlərimizin firavanlaşmasını arzulayıb, videokonfrans formatında Zirvə görüşü təşəbbüsünə görə Azərbaycan Respublikasının Prezidentinə və Türk Şurasına minnətdarlığını bildirib. Koronavirus infeksiyasının dünyada yayılmasını müasir dövrün ən vacib məsələsi adlandıran Sooronbay Jeenbekov Qırğızıstanda bu xəstəliyə qarşı mübarizədə görülən işlərdən danışıb, ölkəsinin ciddi təhdidlərlə üzləşdiyini, yoluxmuş insanların sayının artdığını söyləyib: «Virusun yayılmasının qarşısını almaq və iqtisadiyyatı dəstəkləmək üçün hər cür tədbir görülür. Vəziyyət tam nəzarətdədir. Fürsətdən istifadə edib Türk Şurasının üzvü olan dövlətlərin – Özbəkistan, Qazaxıstan, Azərbaycan və Türkiyənin rəhbərliyinə bizə göstərdikləri köməyə görə təşəkkürümü bildirmək istəyirəm».

Koronavirus infeksiyasının dünyada yayılmasının və bunun nəticəsində yaranmış vəziyyətin davamlı xarakter almasının çoxsaylı risklərə səbəb olduğunu bildirən Prezident Sooronbay Jeenbekov pandemiyanın qarşısını almaq üçün birgə səylərin əhəmiyyətinə toxunaraq deyib: «Türk Şurasında Azərbaycanın sədrliyi çox mürəkkəb dövrdə keçir. Ümidvaram ki, biz koronavirusla bağlı problemlərdən uğurla xilas olacaq və Azərbaycanın sədrliyi ilə iqtisadiyyat, ticarət və investisiyalar sahəsində əməkdaşlığı möhkəmlədəcəyik. Ümid edirəm ki, ölkələrimizin əməkdaşlığı səmərəli olacaq və xalqlarımızın həyat səviyyəsinin yaxşılaşmasına şərait yaradacaq».

**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan** öz çıxışında Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür edib, bildirib ki, bütün bəşəriyyət indi görünməz bir düşmənə qarşı çətin müharibə aparır: «Türk Şurasının bu fövqəladə Zirvə görüşü koronavirus pandemiyası ilə mübarizəmizdə aramızdakı həmrəyliyi möhkəmləndirəcək. Türk dünyası olaraq Allahın izni ilə bu çətin dövrdən də güclənərək çıxacağımıza səmimi qəlbdən inanıram».

Türkiyə Prezidenti koronovirus pandemiyası ilə əlaqədar ölkəsində həyata keçirilən tədbirlərdən danışıb. Qeyd edib ki, bu çətin günlərdə Türkiyə öz qardaşlarının yanında olmağa, onlara yardım etməyə çalışır. Bu baxımdan, Türk Şurası üzvləri arasında da həmrəyliyin nümayiş etdirilməsi məmnunluq doğurur. Rəcəb Tayyib Ərdoğan pandemiyanın dünya iqtisadiyyatına mənfi təsirindən danışıb, onun fəsadlarının azaldılmasının, həmçinin ölkələrimiz arasında əməkdaşlığın gücləndirilməsinin vacibliyini vurğulayıb.

«Əlbəttə ki, koronovirusla savaşda qalib gələcəyik, bunun ardınca yeni dünya reallığı ilə üz-üzə qalacağıq», – deyən Türkiyə Prezidenti pandemiyadan sonrakı dövr üçün də hazırlıqların görülməsinin əhəmiyyətinə toxunub.

**Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev,** ilk növbədə, Türk Şurasının videokonfrans formatında növbədənkənar Zirvə görüşünün bütün dünyada böyük narahatlıq doğuran koronavirus pandemiyasının qarşısının alınması kimi olduqca vacib və aktual məsələyə həsr olunduğunu söyləyib, bu görüşün təşəbbüskarı olan Azərbaycan Respublikasının Prezidentinə minnətdarlığını bildirib. Dünyada çox sayda insanın pandemiya ilə bağlı yaranmış vəziyyətdən əziyyət çəkdiyini deyən Özbəkistan Prezidenti virusun yayılma tempi və miqyasına görə misli görülməmiş qlobal böhrana, bütün bəşəriyyət və dünya iqtisadiyyatı üçün çox ciddi təhdidə çevrildiyini vurğulayıb.

**Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov** görüş iştirakçılarına cansağlığı, dövləti və beynəlxalq fəaliyyətdə uğurlar arzu edib. Sammitin təşkilinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təşəkkür edib: «Bu görüş bizə bütün dünya ölkələrinə aid olan qlobal xarakterli məsələləri müzakirə etməyə yaxşı imkan verir. Aydındır ki, bu gün bəşəriyyət geniş coğrafi sahəni əhatə edən ciddi çağırışla üzləşib».

Hazırkı vəziyyətin bir çox dövlətlərə və xalqların həyatına mənfi təsir göstərdiyini deyən Türkmənistan Prezidenti dünyanı bürümüş bu təhdidə qarşı mübarizədə koordinasiyalı addımların, həmçinin xalqlarımızın humanizm, qarşılıqlı dəstək və həmrəylik nümayiş etdirməsinin əhəmiyyətinə toxunub. Qurbanqulu Berdiməhəmmədov Türkmənistanda koronavirusla mübarizə istiqamətində görülən işlərdən danışıb. Bu vəziyyətdə ticari-iqtisadi əlaqələrin dayanıqlılığını və nəqliyyatın fəaliyyətini təmin etməyin vacibliyini vurğulayıb. «Biz ümumi tarixi olan qardaş ölkələr kimi malik olduğumuz yüksək mənəvi və sosial dəyərləri tam göstərməliyik», – deyən Türkmənistan Prezidenti bu çətin anların birgə dəf ediləcəyinə, ölkələrimiz arasında əməkdaşlıq və qardaşlıq əlaqələrinin daha da möhkəmlənəcəyinə əminliyini bildirib.

**Macarıstanın Baş Naziri Viktor Orban** videokonfransa dəvətə və Azərbaycan tərəfindən ölkəsinə göstərilən köməyə görə Prezident İlham Əliyevə, Türkiyənin maska hazırlamaq üçün materiallar göndərdiyinə görə Prezident Ərdoğana təşəkkürünü bildirib. Qeyd edib ki, vaksinin olmaması pandemiyanın ciddi fəsadlar törətməsinə səbəb olacaq. Macarıstan hökumətinin başçısı pandemiyanın qarşısının alınmasında tibbi heyətin, avadanlıqların və qoruyucu vasitələrin əhəmiyyətindən danışıb, pandemiyanın Avropada yaratdığı ağır iqtisadi vəziyyət barədə məlumat verib.

**Türk Şurasının Baş katibi Bağdad Amreyev** tədbirin yüksək səviyyədə təşkilinə görə Türk Şurasının fəaliyyətdə olan sədri – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dərin hörmət və ehtiramını bildirib.

Pandemiyanın türkdilli ölkələrə də təsir etdiyini deyən Baş katib xoşbəxtlikdən dünyanın başqa yerlərinə nisbətən vəziyyətin o qədər də faciəvi olmadığını söyləyib: «Bu onun nəticəsidir ki, virusla mübarizədə sizin qabaqlayıcı tədbirləriniz, qətiyyətli qərarlarınız daha böyük faciələrin qarşısını almağa imkan verdi. Bizim ölkələrimiz bir-birinə humanitar yardım göstərdi, o cümlədən tibbi avadanlığın və maskaların, qoruyucu eynəklərin və əlcəklərin, test dəstlərinin verilməsi baxımından. Xüsusən də vətəndaşların evakuasiyası ictimaiyyət tərəfindən müsbət qarşılandı. Bu vəziyyət göstərdi ki, Türk Şurası çərçivəsində səhiyyə sahəsində əməkdaşlığı genişləndirmək vacibdir».

Bağdad Amreyev pandemiyadan sonra dünyada yaranacaq iqtisadi böhranın qarşısının alınmasında Türk Şurasına üzv ölkələrin qarşılıqlı birgə fəaliyyətinin gücləndirilməsinin əhəmiyyətindən danışıb, qeyd edib ki, Türk Şurasının Bakı Bəyannaməsində əksini tapan birgə investisiya fondu yaratmaq barədə qərarın icrası böhrandan sonrakı dövrdə iqtisadiyyatların bərpasında mühüm rol oynaya bilər.

Zirvə görüşünün yekununda bir daha çıxış edən Azərbaycan **Prezidenti İlham Əliyev** deyib: «Əminəm ki, bu gün çıxışlarda səslənən dəyərli fikirlər və təkliflər koronavirus xəstəliyinə qarşı bizim birgə mübarizəmizi daha da gücləndirəcəkdir. Eyni zamanda, bu xəstəliyin mənfi təsirlərinin aradan qaldırılması üçün pandemiyadan sonrakı dövrdə iqtisadiyyat, ticarət, nəqliyyat və digər sahələrdə əməkdaşlıq üzrə səylərimizi daha da artırmağımız zəruridir.

Bizim həmrəyliyimiz və birliyimiz nümunəvi xarakter daşıyır. Bu onu göstərir ki, biz yalnız xoş günlərdə deyil, çətin günlərdə də bir-birimizin yanındayıq. ...Ümidvaram ki, koronavirusla mübarizədə qalib gələcəyik və bu ağır vəziyyətdən az itkilərlə çıxacağıq».

Zirvə görüşünün nəticələrinə əsasən Yekun Bəyannaməsi qəbul edilib.



# Mehriban Əliyeva: «Tibb işçilərimiz hər gün igidlik nümunəsi göstərirlər»



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi «Instagram» səhifəsində koronavirus (COVID-19) infeksiyasının Azərbaycan ərazisində geniş yayılmasının qarşısının alınması üzrə dövlət tərəfindən həyata keçirilən tədbirlərlə bağlı paylaşım edib:**

Əziz həmvətənlərim!

Vətənimizə, bizim ümumi evimizə bəla gəlib. Çox təəssüf ki, məkrli xəstəliyin epidemiyası ölkəmizdən də yan keçmədi.

Görünür, planetimizdə pandemiyanın yayılmadığı bir dənə də ölkə qalmayıb. Bir çox dövlətlər xarici aləmdən təcrid olmaq məcburiyyətindədirlər. Virusa yoluxan insanların sayı sürətlə milyona yaxınlaşır, artıq on minlərlə ölən var!

Bəşəriyyət uzun illərdən bəri bu qədər təhlükəli və genişmiqyaslı epidemiya ilə rastlaşmamışdı. Pandemiya öyrəşdiyimiz gündəlik həyat tərzimizi gözümüzün önündə, demək olar ki, günbəgün dəyişir, həyatımızı həyəcan və qorxu içində keçirməyə vadar edir. Bir çoxlarını eyni suallar düşündürür: «Həqiqətənmi hər şey belə ciddidir?», «Bizi nə gözləyir, sonumuz necə olacaq?». Ən əsas sual isə budur: «Epidemiya nə vaxt bitəcək?»

Bu dəhşətli vəziyyətin tez bitməsi üçün bizim hər birimiz nə etməliyik?

Açığını deyim ki, bu sualları cavablandırmaq heç də asan deyil, çətindir, amma cavablar var. Hər şeydən əvvəl, biz hamımız, bütün yaş təbəqələrindən olan vətəndaşlarımız vəziyyətin son dərəcə ciddi olduğunu anlamalı, maksimum həmrəylik və birlik nümayiş etdirməliyik. Həqiqətən də, COVID-19 hər birimizin həyatı və sağlamlığı üçün ciddi təhlükədir. Sizinlə birlikdə mən də Uca Tanrıya dua edirəm ki, doğma torpağımızı qorusun, bu bəlanı evlərimizdən və ailələrimizdən uzaq etsin! İnanıram və ümid edirəm ki, insan zəkası pandemiyanın qarşısını alacaq və bizə gündəlik həyatımızın xoşbəxtliyini qaytaracaq!

Yaranmış fövqəladə vəziyyət ümummilli səfərbərlik tələb edir. Dövlətimizin bütün mümkün maddi imkanları epidemiyanın və onun fəsadlarının aradan qaldırılmasına yönəldilib. Ölkəmizin ən qabaqcıl elm adamları, tibb işçilərimiz, bütün dövlət mexanizmi insanların xilas edilməsi naminə səylə çalışırlar. Epidemiyaya qalib gəlmək üçün misilsiz, genişmiqyaslı tədbirlər görülür. Tələb olunan tibbi ləvazimatların kütləvi istehsalı üçün iri müəssisələr öz profillərini sürətlə dəyişirlər. Xəstəxana və hospitallarımız hər gün öz imkanlarını genişləndirir, müalicəyə ehtiyacı olanları qəbul etmək imkanına malik yeni xəstəxana palatalarının yaradılması üçün bütün resurslar səfərbər olunur. Şəhərlərdə və yaşayış məntəqələrində həyat təminatı obyektləri fasiləsiz fəaliyyət göstərir. İctimai asayişi təmin edən və hər an yardıma hazır olan hüquq mühafizə orqanları və xilasedici xidmətlər öz vəzifələrini layiqincə icra edirlər. Ölkə sərhədlərinin keşiyində dayanan hərbi qulluqçularımız yüksək döyüş əzmini qoruyub saxlayırlar. Tibb işçilərimizə — həkimlərə, tibb bacılarına, sanitariya xidməti işçilərinə gəlincə, mübaliğəsiz demək olar ki, onlar hər gün peşəkar işçi və əsl vətəndaş kimi igidlik nümunəsi göstərirlər. Respublikada bütün işlər Azərbaycan Prezidentinin xüsusi diqqətindədir, onun qətiyyətli rəhbərliyi və 24 saatlıq tam nəzarəti altında aparılır!

İnanıram ki, hökumətlərin və alimlərin titanik səyləri, koronavirusla mübarizəyə yönələn milyardlarla dollar, avro və manat mütləq və hökmən istədiyimiz nəticəyə, epidemiya üzərində bizim ümumi qələbəmizə gətirib çıxaracaqdır. Amma bunu da dərindən dərk etməliyik ki, biz hamımız və hər birimiz görülən tədbirləri, sərf olunan əməyi dəstəkləməsək, vətəndaş məsuliyyəti nümayiş etdirib dəqiq təlimatlara ciddi və qeyd-şərtsiz riayət etməsək, göstərilən səylər gözlənilən nəticəni verməyə bilər.

Əziz həmvətənlərim, mənim doğmalarım!

Mən sizə bir övlad, bir həyat yoldaşı, bir ana və nənə olaraq müraciət edirəm! Qəlbimin dərinliklərindən gələn və hər birinizə ünvanlanan bu sözlərimi eşidib məni anlayacağınıza ümid edirəm! Xahiş edirəm, bunu mütləq zərurət və vəzifəniz kimi qəbul edin — NÖVBƏTİ 20 GÜN ƏRZİNDƏ HAMI ÖZ AİLƏSİ İLƏ BİRLİKDƏ EVDƏ QALMALIDIR. XAHİŞ EDİRƏM, VACİB ZƏRURƏT OLMADAN EVLƏRİNİZİ TƏRK ETMƏYİN!

Bu günlərdə karantin rejiminə riayət edə bilməyən vətəndaşlarımız da var. Minlərlə soydaşımız iş başındadırlar və onlar əllərindən gələni edirlər ki, insanlar özlərini qoruya bilsinlər, evdə qalsınlar və karantin rejiminə əməl etsinlər. Bu gün koronavirus epidemiyası ilə mübarizədə ön cəbhədə olanlara sizin ən gözəl minnətdarlığınız özünütəcrid rejiminə riayət etməyinizdir. Biz bu qaydalara nə qədər ciddi və səmərəli riayət etsək, epidemiya ilə mübarizə aparan qardaş və bacılarımız adi həyat tərzinə, öz ailələrinin yanına bir o qədər tez qayıda bilərlər.

Gündəlik həyat tərzindən imtina edib evdən çölə çıxmamağın, doğmaların və yaxınlarınla görüşməməyin, bəzən övladlarını və nəvələrini qucaqlamaq imkanından məhrum olmağın çətinliyini anlayıram. Amma əgər biz məsuliyyətli vətəndaşlarıqsa, əgər həqiqətən valideynlərimizi seviriksə (mən isə buna əminəm!), doğrudan da övladlarımızın və nəvələrimizin qədrini biliriksə, bunu onlar üçün etməyə borcluyuq, məhz borcluyuq! Özümüz üçün! Vətənimiz naminə!

Artıq bir neçə ölkənin faciəli təcrübəsi bəşəriyyətə koronavirus pandemiyası zamanı sağ qalmağın əsas prinsipini necə formalaşdırmaq lazım olduğunu göstərdi. Bu prinsip dramatik dərəcədə sadə və birmənalıdır: ya xalq karantin rejiminə əməl edir və hamı sağ qalır, ya da tövsiyələrə məhəl qoymur və çoxsaylı insan tələfatı qaçılmaz olur. Düşünün, cəmi bir insanın laqeydliyi onlarla günahsız insanın ölümünə gətirib çıxara bilər. Mən artıq bu barədə yazmışdım ki, COVID-19 yeni, bu günədək elmə məlum olmayan virus olduğuna görə, Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələri situativ xarakter daşıyır və dünyanın müxtəlif yerlərindən daxil olan məlumatlar təhlil edildikcə, onlar dəyişir.

Beləliklə, Ümumdünya Səhiyyə Təşkilatının sonuncu bəyanatı bu infeksiyaya müxtəlif yaş kateqoriyalarından olan insanların yoluxduğunu və hətta gənclər üçün real təhlükə törətdiyi faktını təsdiqləyir. Artıq koronavirusa yoluxmuş uşaqların da ölüm halları qeydə alınır.

Məhz buna görə bizim hər birimiz dövlət tərəfindən görülən tədbirlərin vacibliyini birmənalı olaraq başa düşməli və maksimum dərəcədə vətəndaş məsuliyyəti nümayiş etdirməliyik. Məhz bu cür, bir-birimizi qayğı ilə dəstəkləyərək, dözüm və anlayış göstərərək, taleyin hökmü ilə üzləşdiyimiz qorxunc sınaqdan üzüağ çıxıb, koronavirus üzərində qələbədən sonrakı həyat üçün hər kəsi qoruya bilərik.

Bu qələbə mütləq baş tutacaq! Mən bu qələbəyə inanıram! ÖZÜNÜZDƏN MUĞAYAT OLUN! SİZİ SEVİRƏM! SİZƏ İNANIRAM!

**Hər birinizə dualarla,**
**Sizin MEHRİBAN**

# Birinci vitse-prezident Mehriban Əliyeva könüllü qan donorlarına təşəkkür edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi «Instagram» səhifəsində paylaşım edərək, Heydər Əliyev Fondu tərəfindən başlanılmış qanvermə aksiyasına könüllü qoşulanlara təşəkkürünü bildirib.**

Paylaşımda deyilir: «Azərbaycan xalqının hər zaman birlik və həmrəylik nümayiş etdirərək birbirinə kömək etməyə hazır olması, əl-ələ verərək çətinlik və sınaqlardan birlikdə üzüağ çıxması bizim ən gözəl xüsusiyyətlərimizdən biridir. İrsi qan xəstəliklərindən, xüsusilə də talassemiyadan əziyyət çəkən insanlara kömək məqsədilə Heydər Əliyev Fondu tərəfindən başlanılmış qanvermə aksiyasına könüllü olaraq çoxsaylı vətəndaşlarımızın qoşulması bunu bir daha göstərdi. Bu nəcib təşəbbüsə qoşulan hər kəsə dərin minnətdarlığımı bildirirəm. Hamıya möhkəm cansağlığı arzulayıram. Qoy, xoş əməllərin sayı artsın! Uca Tanrı sizi qorusun!»

# Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatı

**Nazirlər Kabineti yanında Operativ Qərargahın 30 aprel 2020-ci il tarixinə dünyada və Azərbaycanda yeni koronavirus infeksiyası ilə bağlı vəziyyətə dair məlumatında bildirilir ki, həmin gün Azərbaycan Respublikasında koronavirus infeksiyasına 38 yeni yoluxma faktı qeydə alınıb, 58 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış, arterial hipertenziya xəstəliyi olan 1951-ci il təvəllüdlü vətəndaş vəfat edib.**



Ümumilikdə, göstərilən tarixədək olan dövrdə ölkəmizdə 1804 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 1325 nəfər müalicə olunaraq sağalıb, 24 nəfər vəfat edib. 455 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir, onlardan 17 nəfərin vəziyyəti ağır, 24 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 143 079 test aparılıb.

Ümumdünya Səhiyyə Təşkilatının həmin tarixə olan məlumatına görə, dünyada 3 301 792 nəfər koronavirusa yoluxub, 1 038 084 nəfər sağalıb, 233 729 nəfər isə bu xəstəlikdən vəfat edib.

Koronavirus infeksiyasının qlobal pandemiya elan olunduğunu və virusun geniş yayılma tendensiyasının davam etdiyini nəzərə alaraq, bir daha vətəndaşlarımızı diqqətli olmağa, Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə riayət etməyə, Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul etdiyi qərarları və müəyyənləşdirdiyi qaydaları tam yerinə yetirməyə çağırırıq.

***Qeyd:** Qəzetdəki digər materiallarda dünyada və Azərbaycanda COVID-19 virusu ilə bağlı verilən rəqəmlər həmin məqama olan vəziyyəti əks etdirir.*

# Türk Şurası ölkələrinin səhiyyə rəhbərlərinin onlayn görüşü keçirildi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında keçirilmiş fövqəladə Zirvə görüşündə dövlət başçıları Şuraya üzv ölkələrdə vəziyyəti müzakirə edib, koronavirus pandemiyası ilə mübarizəyə dair Bakı Bəyannaməsini qəbul ediblər. Tədbirdə Azərbaycan Respublikası Prezidenti bu istiqamətdə səylərin birləşdirilməsinin vacibliyini qeyd edərək, sammitdə qəbul olunmuş bəyannamənin müddəalarının icrası üçün üzv ölkələrin səhiyyə nazirləri səviyyəsində eyni formatda görüşün keçirilməsini təklif edib. Məsələyə dair üzv dövlətlərlə aparılan danışıqların nəticəsində videokonfransın keçirilməsi haqqında razılıq əldə olunub və aprelin 28-də bu virtual görüş baş tutub.**

Onlayn formatda keçirilən konfransda qurumun sədr dövləti olan Azərbaycan Respublikasının Səhiyyə naziri Oqtay Şirəliyev, Türk Şurasının Baş katibi Bağdad Amreyev, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Avropa Regional Bürosunun direktoru Hans Klüge, qurumun üzv dövlətləri olan Qazaxıstan Respublikasının Səhiyyə naziri Eljan Birtanov, Qırğızıstan Respublikasının Səhiyyə naziri Sabirjan Abdikarimov, Türkiyə Cümhuriyyətinin Səhiyyə naziri Fahrettin Koca, Özbəkistan Respublikası Səhiyyə naziri Aleşer Şadmanov və müşahidəçi ölkə olan Macarıstanın Dövlət səhiyyə katibi Zoltan Lourens çıxış ediblər.

Azərbaycan Səhiyyə naziri Oqtay Şirəliyev Türk Şurasına sədrlik edən dövlətin nümayəndəsi kimi toplantı iştirakçılarını salamlayıb, bütün dünya üçün, o cümlədən bizim ölkələrimiz üçün, xüsusilə səhiyyə sistemlərimiz üçün bu çətin və mürəkkəb zamanda bu görüşə vaxt tapıb qoşulduqlarına görə onlara təşəkkür edib. Bildirib ki, ümumi köklərimizin, mədəni və tarixi yaxınlığımızın təzahürü olan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası xalqlarımızın dostluq və qardaşlıq bağlarına əsaslanır. Mürəkkəb dövrlərdə bu birliyin və əməkdaşlığın dəyəri daha da artır, hər kəs qardaş dəstəyinə daha çox ehtiyac duyur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xalqımıza «Biz birlikdə güclüyük» çağırışını beynəlxalq aləmə və türk birliyinə şamil edən nazir bildirib ki, dünya birliyinin və türkdilli xalqlar toplumunun etibarlı üzvü olaraq Azərbaycan digər sahələrdə olduğu kimi, səhiyyə sahəsində də, xüsusən günümüzün aktual problemi — COVİD-19 pandemiyası ilə mübarizədə də əməkdaşlıq etməyə hazırdır və bunu edir.

Səhiyyə naziri pandemiya şəraitində həmrəyliyin gücləndirilməsi üçün indiyədək atılmış önəmli addımlardan danışıb, ayrı-ayrı türk dövlətləri ilə, Türk Şurasının üzv və müşahidəçi dövlətləri ilə bu sahədə əməkdaşlıq əlaqələrindən söz açıb. O, təxliyə, karantin, müalicə, testləşdirmə kimi tədbirlərdə, müvafiq avadanlığın, test dəstlərinin, qoruyucu vasitələrin və onların istehsalı üçün xammalın əldə olunmasında və s. istiqamətlərdə həyata keçirilən bu əməkdaşlığa görə tərəfdaş qurumlara təşəkkür edib.

COVİD-19-un yeni infeksiya olduğunu qeyd edən Oqtay Şirəliyev bildirib ki, bəşəriyyət bu virusla indi tanış olduğuna görə, onun özünü necə apardığını indi öyrənir: «Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın sözləri ilə desək, informasiya bolluğuna baxmayaraq, suallar cavablardan daha çoxdur. Belə şəraitdə təcrübə, bilik, məlumat xüsusi əhəmiyyət daşıyır.



Dünya bu virusla mübarizə aparmaq təcrübəsini indi, bu ağır mübarizənin gedişində qazanır. Ona görə təcrübə mübadiləsi bu gün əməkdaşlığın ən vacib istiqamətlərindən biridir». Bunu nəzərə alaraq, Səhiyyə naziri Azərbaycanın bu sahədə təcrübəsindən danışıb.

Bildirib ki, virusun ölkəyə xaricdən daxil olmasının qarşısını almaq üçün görülən tədbirlər mərhələli şəkildə tətbiq olunub. Buraya ölkəyə gələnlərin yoxlanması, sonrakı mərhələdə sərhədlərin bağlanması, xaricdən təxliyə olunan vətəndaşlarımız üçün karantin tədbirlərinin təşkili, karantin müəssisələrində tibb işçilərinin fəaliyyəti və s. aiddir.

İkinci istiqamət — ölkə daxilində yoluxmaların qarşısının alınması üçün görülən tədbirlər də tədricən, vəziyyətdən asılı olaraq həyata keçirilib. Xüsusi rejimin tətbiq olunması, geniş miqyaslı dezinfeksiya işlərinin təşkili, təhsil, əmək və digər müəssisələrin distant rejimə keçməsi, risk qrupunda olan yaşlı insanlar üçün sosial xidmətlərin təşkili və s. bu qəbildəndir.

Üçüncü istiqamət — yoluxmuş şəxslərin aşkar edilməsi üçün ilk mərhələdən ölkəyə testlər, test dəstləri gətirilib, konkret olaraq məhz bu virusun təyini üçün laboratoriyalar ayrılıb, yeni laboratoriyalar təşkil olunub. Hazırda ölkədə COVİD-19 üzrə 18 laboratoriya fəaliyyət göstərir, onların 5-i yeni yaradılıb. İndiyədək yüz minə yaxın müayinə aparılıb.

Nazir Oqtay Şirəliyev qeyd edib ki, dördüncü istiqamət, yəni xəstələnmiş şəxslərin müalicəsinin təşkili məqsədilə Bakıda və bölgələrdə xüsusi tibb müəssisələri ayrılıb. Son 16 il ərzində Azərbaycanda səhiyyənin maddi-texniki bazasının gücləndirilməsi, həkimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi üçün görülmüş əsaslı işlərdən danışan natiq bildirib ki, hazırda koronavirus xəstələri 20-dən artıq müasir, zəruri avadanlıqlarla təchiz olunmuş dövlət xəstəxanasında müalicə olunurlar. Bundan başqa, qısa müddət ərzində 6-sı dövlət, 4-ü isə özəl sahibkarlar tərəfindən tikilməklə, hər birinin 200 çarpayı yeri olan 10 müasir modul tipli xəstəxananın istifadəyə verilməsi də nəzərdə tutulur.

Müalicə üçün kadr potensialının əhəmiyyətini vurğulayan nazir əminliklə bildirib ki, bu gün Azərbaycan səhiyyəsinin yüksək ixtisaslı kadr potensialı var. Bütün ölkənin müvafiq ixtisaslı həkim kadrları bu işə səfərbər olunub. COVİD-19 üzrə müalicə və karantin müəssisələrinin, təcili tibbi yardım və ilkin səhiyyə xidmətlərinin personalı üçün koronavirus və təhlükəsizlik üzrə təlimlər, o cümlədən distant təlimlər keçilir.

Səhiyyə naziri hər kəsin öz davranışını epidemiya ilə mübarizənin tələblərinə uyğunlaşdırmasının, bu məqsədlə maarifləndirmə işlərinin vacibliyini qeyd edib.

Pandemiyaya qarşı mübarizənin ilk günlərindən Azərbaycanın ÜST ilə səmərəli əməkdaşlıq etdiyini deyən Oqtay Şirəliyev fəaliyyətin bu qurumun tövsiyələrinə uyğun qurulduğunu söyləyib. ÜST mütəxəssislərindən ibarət heyətin ölkəmizdə görülmüş işlərə müsbət qiymət verdiyini, ÜST Baş direktoru Tedros Adhanom Gebreyesus tərəfindən Prezident İlham Əliyevə ünvanlanmış məktubda da ölkəmizdə pandemiyaya qarşı görülmüş tədbirlərin təqdir olunduğunu, bu tədbirlərə görə Azərbaycanın nümunəvi ölkə kimi dəyərləndirildiyini vurğulayıb.

«Biz haqqında danışdığım bu təcrübəmizlə bütün türk dünyası üçün açığıq, əməkdaşlığa, təcrübəmizi bölüşməyə və imkanımızda olan hər cür köməkliyi göstərməyə hazırıq», — deyən Səhiyyə naziri Türk Şurası dövlətlərinin səhiyyə sahəsində əməkdaşlığı üçün geniş imkanların olduğunu bildirib: «Pandemiya şəraitində səhiyyə xidmətinin və qabaqlayıcı tədbirlərin təşkili təcrübəsini bölüşmək, xəstəliyin müalicəsi zamanı müsbət dinamikaya gətirən üsullar haqqında məlumatları paylaşmaq, yoluxucu xəstəliklərlə mübarizə üzrə ekspert yardımı göstərmək, təlimlər keçmək kimi istiqamətlərdə bir-birimizə faydalı ola bilərik. Həmçinin bu gün sərhədlərin bağlandığı şəraitdə ölkələrimizin ərazisində Şuranın digər ölkələrinin vətəndaşları qalıb. Onlara dəstək, karantin xidmətləri, lazım gəldikdə tibbi yardım da göstərmək lazımdır».

Çıxışının sonunda Azərbaycanın Səhiyyə naziri əminliyini bildirib ki, ölkələrimiz və xalqlarımız bu ağır vəziyyətin öhdəsindən layiqincə gələcək, pandemiyaya qarşı bu mübarizədən qalib çıxacaq.

Müzakirələr zamanı hər bir nümayəndə öz ölkəsində COVID-19 pandemiyası üzrə sanitar-epidemioloji vəziyyət, səhiyyə infrastrukturu, diaqnostika və müalicə, karantin tədbirləri və digər məsələlər ətrafında çıxış edib.

Onlayn iclasa yekun olaraq, Türk Şurasının Sammitində qəbul edilən bəyannamənin müddəalarının yerinə yetirilməsinə dair aşağıdakı qərarlar qəbul edilib:

1. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası çərçivəsində səhiyyə sahəsində əməkdaşlıq qurulsun və tərəflərin ekspertlərindən ibarət Birgə İşçi Qrup yaradılsın;
2. COVID-19 pandemiyası və digər təhlükəli infeksiyalara qarşı mübarizədə profilaktika, diaqnostika, müalicə, epidemioloji nəzarət, elmi araşdırmalar sahəsində məlumat və təcrübə mübadiləsi genişləndirilsin;
3. COVID-19 və digər təhlükəli infeksiyalar üzrə əməkdaşlıq və koordinasiyanın genişləndirilməsi məqsədilə üzvmüşahidəçi dövlətlərin aidiyyəti nazirliklərinin ekspertlərindən ibarət Xüsusi Əməkdaşlıq Mexanizmi yaradılsın və onun fəaliyyəti Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Katibliyi vasitəsilə tənzimlənsin;
4. Pandemiyalar zamanı xəstəxanaların idarəedilməsi, laborator diaqnostika və həyati dəstək əhəmiyyətli tibbi avadanlıqlarla bağlı ehtiyacların qiymətləndirilməsi, eləcə də ixtisaslı tibb mütəxəssislərindən ibarət qrupların yaradılmasına dair əməkdaşlıq və təcrübə mübadiləsi aparılsın;
5. Təhlükəli infeksiyaların müalicə və profilaktikasında yeni metodların, o cümlədən, müvafiq vaksin, farmakoloji məhsulların və müalicə sxemlərinin hazırlanması sahəsində birgə əməkdaşlıq inkişaf etdirilsin;
6. COVID-19 və digər təhlükəli infeksiyalar üzrə tibb mütəxəssisləri üçün bilik və bacarıqların inkişafı proqramlarının tətbiqi, eləcə də onlayn-təlimlər təşkil edilsin.

Sonda görüşün iştirakçıları COVID-19 ilə mübarizə üçün birgə tədbirlərin hazırlanması və əlaqələndirilməsi məqsədilə gələcəkdə də belə görüşlər keçirməyə hazır olduqlarını bildiriblər.

Həmçinin Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin səhiyyə sahələrinin rəhbərləri Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fövqəladə Zirvə görüşünün təşkili və bu ölkələrin Səhiyyə nazirləri səviyyəsində görüş keçirmək təşəbbüsü ilə çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə öz səmimi minnətdarlıqlarını xüsusi qeyd ediblər.

# Çin COVID-19 pandemiyası ilə mübarizədə Azərbaycana yardım edib

**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyində ölkəmizin yeni növ koronavirus (COVID-19) epidemiyası ilə mübarizəsinə dəstək olaraq Çin Xalq Respublikası (ÇXR) tərəfindən yardımın təqdim edilməsi mərasimi keçirilib.**

Toplantıda çıxış edən **Xarici İşlər nazirinin müavini Ramiz Həsənov** tədbirin Azərbaycan ilə Çin arasında diplomatik əlaqələrin qurulmasının 28-ci ildönümünə təsadüf etdiyini vurğulayıb, ölkələrimiz arasında qarşılıqlı anlaşma və etimada əsaslanan ən yüksək səviyyəli siyasi dialoqun mövcud olduğunu qeyd edib. Hazırda COVID-19 pandemiyası ilə qlobal səviyyədə mübarizə aparıldığı bir dövrdə Azərbaycan və Çin xalqları arasında həmrəyliyin nümayiş etdirildiyi məmnunluqla vurğulanıb. ÇXR-in Azərbaycana COVID-19 infeksiyasının müəyyən olunması üçün test dəstləri hədiyyə etməsini dostluğumuzun bariz nümunəsi adlandıran R.Həsənov göstərilən dəstəyə görə Çin xalqına və hökumətinə minnətdarlığını bildirib. O, Azərbaycanın da Çinin epidemiya ilə mübarizə apardığı ilk günlərdən Çin xalqı ilə həmrəylik nümayiş etdirdiyini, ona kömək məqsədi ilə maddi və mənəvi dəstəyini əsirgəmədiyini bildirib.




**Çinin Azərbaycandakı səfiri xanım Qo Min** çıxışında bu tədbirin xüsusi əhəmiyyət kəsb etdiyini, Çin ilə Azərbaycan arasındakı dərin və incə dostluğu, yüksək qarşılıqlı etimadı nümayiş etdirdiyini vurğulayıb. Yeni koronavirus sətəlcəm epidemiyasının qəfil başlaması fonunda heç bir çətinlikdən və təhlükədən qorxmayan Çin hökuməti və xalqının böyük fədakarlıqla ölkədə pandemiyanın qarşısının alınması tədbirlərindən bəhs edən diplomat hazırda mövcud vəziyyətin yaxşılaşmaqda davam etdiyini bildirib.

Səfir Çin üçün ən çətin dövrdə Azərbaycan hökumətinin və dost insanların Çinə müxtəlif yollarla güclü dəstək verdiyini vurğulayıb. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən dərhal Çinin Sədri Si Cinpinə başsağlığı məktubunun göndərildiyi qeyd olunub. Səfir Qo Min Sumqayıt Şəhər İcra Hakimiyyəti tərəfindən epidemiyanın qarşısının alınması üçün materialların bağışlanmasını, Heydər Əliyev Fondunun və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin müvafiq kanallar vasitəsilə Çinlə fəal şəkildə həmrəylik nümayiş etdirdiklərini məmnunluqla qeyd edib. Diplomat həmçinin iki ölkə arasındakı dostluğu əks etdirmək məqsədi ilə Çin hökumətinin yeni növ koronavirus epidemiyasını aşkarlamaq üçün 5000 nəfərlik testi Azərbaycan tərəfinə hədiyyə etdiyini vurğulayıb. Bildirib ki, Çin həmçinin yaxın gələcəkdə Azərbaycana epidemiya əleyhinə maddi yardımın ikinci toplusunu, o cümlədən qeyri-invaziv respirator, qoruyucu geyim və s. təqdim edəcək.

Daha sonra çıxış edən **Səhiyyə nazirinin müavini Viktor Qasımov** hazırda bütün dünyanın COVID-19 pandemiyası ilə mübarizə apardığını qeyd edərək, bu xüsusda infeksiyanın Azərbaycandan da yan keçmədiyini təəssüflə bildirib. Dövlətimizin başçısının birbaşa rəhbərliyi ilə Azərbaycan hökumətinin infeksiyanın yayılmasının qarşısının alınması istiqamətində qabaqlayıcı və təsirli tədbirlər həyata keçirdiyini söyləyib.

V.Qasımov Azərbaycan həkimlərinin infeksiya ilə mübarizədə qəhrəmancasına fəaliyyət göstərdiklərini vurğulayıb. O, Çin hökumətinin və xalqının koronavirus epidemiyası ilə mübarizədə əldə etdiyi nailiyyətlər münasibətilə təbriklərini çatdırıb. Nazir müavini həmçinin Çinin Azərbaycana göstərdiyi dəstəyə görə minnətdarlığını ifadə edib və iki ölkə arasında səhiyyə sahəsində əməkdaşlığın bundan sonra daha da genişlənəcəyinə inamını bildirib.

Sonda Azərbaycan Respublikasının Səhiyyə nazirinin müavini Viktor Qasımov və Çin Xalq Respublikasının ölkəmizdəki səfiri Qo Min «Çin Xalq Respublikası tərəfindən Azərbaycan Respublikasına COVID-19 pandemiyası ilə mübarizə üçün tibbi vasitələrin təqdim edilməsinə dair Təhvil-Təslim Aktları»nı imzalayıblar.

## ÜST Baş direktoru Azərbaycan Prezidentinə təşəkkür edib

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Gebreyesus keçirdiyi mətbuat konfransında Azərbaycanın koronavirus pandemiyasına qarşı həm qlobal, həm də regional mübarizəyə töhfəsindən danışıb.**

ÜST rəhbəri Azərbaycan Prezidentinin təşəbbüsü ilə keçirilən videokonfrans formatında toplantıda koronavirusa qarşı mübarizə barədə müzakirələr aparıldığını, özünün də həmin toplantıda iştirak etdiyini bildirib. Tedros Adhanom Gebreyesus bu kimi addımları vacib hesab etdiyini vurğulayıb.

Baş direktor Azərbaycanın koronavirus pandemiyasına qarşı mübarizəyə verdiyi qlobal töhfəni yüksək qiymətləndirib. O deyib ki, Azərbaycan qlobal səviyyədə bu mübarizəyə 5 milyon ABŞ dolları vəsait ayırıb. «Mən Azərbaycan Prezidentinin milli, regional və qlobal səviyyədə bu mübarizədə güclü səylərini görürəm. İmkandan istifadə edərək cənab Prezidentə təşəkkürümü bildirmək istəyirəm ki, bütün bu üç səviyyədə səyləri birləşdirir, dəstək verir», — deyə Tedros Adhanom Gebreyesus bildirib.

**Elgün NİFTƏLİ,**
**AZƏRTAC-ın xüsusi müxbiri**
***Cenevrə***

## ÜST-nin Baş direktoru Azərbaycan Prezidentinin COVİD-19 epidemiyası ilə mübarizə siyasətini təqdir edir

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Gebreyesus Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və digər ölkələrin liderlərinə səmimi məktub ünvanlayıb.**

ÜST-nin Baş direktoru COVID-19 pandemiyasının təsirinin və miqyasının məhdudlaşdırılması istiqamətində Azərbaycan Prezidentinin yürütdüyü siyasəti və atılan addımları təqdir edir.

Tedros Gebreyesus beynəlxalq ictimaiyyətə müraciət edərək, bir sıra fundamental addımların atılmasını xahiş edir. Bu addımlar sırasında dövlət qurumları arasında koordinasiyanın gücləndirilməsi, ictimai toplantıların dayandırılması, test, izolyasiya və karantinin həyata keçirilməsi üçün dövlət qurumlarının yeni şəraitə uyğunlaşdırılması, səhiyyə qurumlarının və ön sırada olan işçilərin müvafiq resurslarla təmin edilməsi, əhaliyə bu xəstəliyin ciddiliyinin izah olunması, əl gigiyenası, öskürək etiketi və sosial məsafənin vacibliyinin izah edilməsi, bütün şübhəlilərin təcrid olunması, pandemiyadan ən çox zərər çəkmiş insanlara iqtisadi yardımın göstərilməsi, dövlətlər arasında həmrəyliyin gücləndirilməsi, yoluxma halları və nəzarət tədbirləri barədə ÜST ilə operativ şəkildə informasiyanın paylaşılması və digərləri yer alır.

Bu xüsusda vurğulanmalıdır ki, səhiyyə sahəsində ən böyük qurum hesab olunan ÜST-nin təklifləri bu günə qədər Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən tədbirlərin tərkib hissəsidir. Məktubda təklif edilən addımların artıq uzun müddətdir ki, Azərbaycanda tətbiq olunması bir daha koronavirusa qarşı ölkəmizdə aparılan mübarizənin düzgünlüyünü təsdiq edir. Bu mənada, Azərbaycanda həyata keçirilən siyasət bir sıra ölkələr üçün nümunə ola bilər.

## Azərbaycanda ağır koronavirus xəstələrinə konvalesent plazma müalicəsi tətbiq olunacaq

**Koronavirus xəstələrinin müalicəsində istifadə olunan konvalesent plazma müalicəsi artıq Azərbaycanda da tətbiq edilməyə başlanılacaq.**

Bu barədə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyindən (TƏBİB) AZƏRTAC-a məlumat verilib.

İmmun plazma müalicəsi COVID-19 diaqnozu ilə müalicə alıb sağalmış xəstələrdən Mərkəzi Qan Bankı tərəfindən toplanan qan plazmasının ağır vəziyyətdə olan xəstələrdə istifadəsi ilə həyata keçirilən müalicə metodudur.

Koronavirus xəstələri üçün kimlər plazma donoru ola bilər?

Bu müalicə üçün donorlar COVID-19 diaqnozu laborator olaraq təsdiqlənib, sonradan sağalan 18-60 yaş arası şəxslər arasından seçilir, bu şərtlə ki, onlarda klinik olaraq tam sağalmadan ən azı 14 gün sonra test nəticəsi 2 dəfə neqativ olsun. Bu qəbildən olan, həyatının heç bir dövründə qan transfuziyası edilməmiş kişilər və hamilə olmayan qadınlar (düşüyü və abort olmamış) könüllülük əsasında donor ola bilərlər.

Uyğun donor qan donorluğunda olduğu kimi razılıq forması doldurur və müayinə edilir. Daha sonra donordan qan alınaraq laborator testlər həyata keçirilir. Test nəticələri uyğun olan donorlardan aferez metodu ilə plazma alınır. Prosedur 45-60 dəqiqə davam edir. Donordan immun plazma 1 ay ərzində ən çox 3 dəfə, ilk plazmanın götürüldüyü tarixdən etibarən 7-10 gün fasilə ilə alına bilər.

Plazma alınmasının donorun sağlamlığı üçün heç bir riski yoxdur. Aferez proseduru zamanı qanın ayrılması üçün istifadə olunan setlər birdəfəlik və sterildir, qapalı sistem kimi işləyir. Prosedur zamanı qan cihazla təmas etmir.

Sağalan xəstələrin məlumatları TƏBİB tərəfindən Mərkəzi Qan Bankına göndərilir və plazma donorları Mərkəzi Qan Bankı tərəfindən seçilir. Könüllü donorlar müəyyən olunmuş növbəli sistem əsasında Mərkəzi Qan Bankına dəvət olunur. Gəlmə imkanı olmayan könüllü donorlar üçün Mərkəzi Qan Bankı tərəfindən gəliş-gedişləri təmin olunur. Xəstəxanadan gələn tələblərə əsasən plazmalar göndərilir. Plazma istəyi xəstə yaxını və ya xəstənin özü tərəfindən edilə bilməz.

### AŞAĞIDAKI TİBB MÜƏSSİSƏLƏRİ GÖSTƏRİLƏN VAKANT YERLƏRƏ MÜSABİQƏ ELAN EDİR

**Respublika Psixiatriya Xəstəxanası PHŞ**

Tibb bacısı (qardaşı) - 5.0
Dezinfektor - 1.0
Rentgen-texnik - 1.0

***Ünvan: Şeyx Hüseyn küç., 69/71***
***Telefon: 455-10-91***

**Sumqayıt şəhər Narkoloji Dispanseri**

Tibb bacısı (qardaşı) - 1.0

***Ünvan: Azərbaycan pr. ev, 3***
***Telefon: (01865) 5-91-13***

*Qeyd: Müsabiqədə iştirak etmək istəyən namizədlər elan dərc olunduğu gündən etibarən 30 gün ərzində aşağıdakı sənədləri elanda qeyd olunan ünvana təqdim etməlidirlər:*

- *müəssisə rəhbərinin adına yazılmış ərizə;*
- *şəxsiyyət vəsiqəsinin surəti;*
- *təhsil və ixtisas haqqında sənədlərin surəti;*
- *əmək kitabçasının surəti (mövcud olduğu halda);*
- *sağlamlıq haqqında arayış;*
- *nikah haqqında şəhadətnamənin surəti (mövcud olduğu halda).*

# Operativ Qərargahın brifinqi keçirildi

**Nazirlər Kabineti yanında Operativ Qərargahın aprelin 24-də keçirilmiş növbəti brifinqində Səhiyyə nazirinin müavini Viktor Qasımov və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı iştirak ediblər.**

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın xəstələrin müalicəsini daim nəzarət altında saxladıqlarını vurğulayan TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı dünya və ölkə üzrə ümumi məlumatları diqqətə çatdırıb. Bildirib ki, ölkəmizdə diaqnostik müayinələr davam etdirilir. Virusun müəyyən olunması üçün bütün avadanlıqlar mövcuddur. Hazırda 18 laboratoriyanın fəaliyyəti tam təmin edilib. Ötən müddətdə COVID-19 üzrə 115 minə yaxın test aparılıb. Hər bir milyon əhaliyə düşən testlərin sayı 10 674 olub ki, bu rəqəmə görə də ölkəmiz ön sırada olan ölkələrdəndir. Heydər Əliyev Fondunun dəstəyi ilə istifadəyə verilən müasir PZR laboratoriyaları diaqnostika imkanlarını genişləndirir. Aprelin 20-də Şəkidə laboratoriya fəaliyyətə başlayıb. Aprelin 27-də isə Sumqayıtda belə laboratoriya işə düşəcək: «Özəl sektor bu sahədə bizə çox yaxın dəstək göstərir. Bu laboratoriyaların ölkəmizə gətirilib quraşdırılmasında «Paşa Holdinq»in böyük dəstəyi var. İngiltərədə istehsal olunan reaktivlərlə analiz apardığımız üçün testlərin nəticələrindən əminik». O vurğulayıb ki, tibbi təchizat baxımından ölkədə heç bir dərman və ləvazimatla bağlı qıtlıq yoxdur.

Səhiyyə nazirinin müavini Viktor Qasımov isə bildirib ki, Azərbaycanda epidemioloji gərginlik hələ davam etsə də, karantin rejimi vəziyyəti nəzarətdə saxlamağa imkan verir. O qeyd edib ki, ölkədə hələ də koronavirus infeksiyasının yayılması prosesi gedir, yeni xəstələr aşkarlanır. Bu vəziyyət onu göstərir ki, martın sonu və aprelin əvvəlində bu virusa yoluxanların sayında artım olub. Karantin rejiminin tətbiqi ilə vəziyyət nəzarətə götürülüb. Xəstələr vaxtında nəzarətə alınmasaydı, rejim tətbiq edilməsəydi, çox ağır vəziyyət yaşana bilərdi. Amma ciddi karantin tədbirləri ölkəmiz üçün əhəmiyyətli oldu. Dövlət üzərinə düşən bütün tədbirləri gördü. Vətəndaşlar qaydalara maksimum riayət etsələr, biz bu xəstəlikdən qurtula bilərik. Ancaq karantin rejimi yumşaldıqdan sonra yoluxma halları artarsa, rejim yenidən sərtləşdirilə bilər.




Viktor Qasımov bildirib ki, epidemioloji vəziyyətin nəzarətdə saxlanması diaqnostik imkanlar, testləşdirmə və xəstəliyin vaxtında aşkarlanması sayəsində mümkün olub: «Son iki həftə ərzində sağalanların sayı artıb. Bu günə qədər xəstələrin, demək olar ki, 64 faizi sağalıb».

Nazir müavini məlumat verib ki, ölkəmizdə bəzi regionlar artıq koronavirusdan təmizlənib. Virusun qeydə alındığı ərazilərin 25 faizində fəal risk ocaqları ləğv edilib. Əvvəllər virus aşkar edilən 12 rayonda bu xəstəliyə yoluxma artıq yoxdur. Qeyd edib ki, rejimlə müəyyənləşən davranış qaydalarına, əsasən sosial izolyasiyaya, şəxsi gigiyenaya riayət edilsə, nailiyyətlərimiz daha çox olacaq.

TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı da deyib ki, ölkəmizdə koronavirusla bağlı müsbət dinamika görülən tədbirlərin öz bəhrəsini verdiyini göstərir: «Hər gün 4-6 min test aparsaq da, yoluxma faktlarının azalması qeydə alınır. Bu faktlar 3,5 faizdən 0,5-1 faizə qədər enib». Onun sözlərinə görə, yoluxanlar arasında 50-59 yaşlı vətəndaşlar üstünlük təşkil edir. Yoluxanların 54 faizi qadınlar, 46 faizi kişilərdir: «Yoluxma hallarının 52,1 faizi paytaxtda qeydə alınıb. Bakının Yasamal, Nəsimi və Binəqədi rayonlarında əhalinin sıxlığı ilə əlaqədar yoluxma hallarına digərlərinə nisbətən daha çox rast gəlinir. Xaricdən idxal olunma halları 13,16 faizə bərabərdir. Naxçıvan Muxtar Respublikasında isə yoluxma halları 0,27 faiz təşkil edir». O, ölüm hallarının daha çox 60-69 yaş qrupunda müşahidə edildiyini bildirib.

Tibb işçilərinin yoluxması ilə bağlı suala cavab olaraq Səhiyyə nazirinin müavini Viktor Qasımov qeyd edib ki, ölkəmizdə koronavirusa yoluxanlar arasında 300 nəfərə yaxın tibb işçisi var. Onların çoxu artıq sağalıb. Tibb işçiləri arasında vəziyyəti ağır xəstə yoxdur.

## Azərbaycanda «İmmunlaşdırma həftəsi» keçirilib

**Səhiyyə naziri Oqtay Şirəliyev ölkəmizdə «İmmunlaşdırma həftəsi»nin keçirilməsi barədə əmr imzalayıb.**

Sənəd Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) təşəbbüsü ilə 2006-cı ildən etibarən Avropa regionunda keçirilən «İmmunlaşdırma həftəsi»nin ölkəmizdə də yüksək səviyyədə təşkili məqsədi ilə qəbul olunub. Əmrdə 2020-ci il aprelin 20-dən 26-dək ölkənin bütün şəhər və rayonlarında «İmmunlaşdırma həftəsi»nin təşkili Səhiyyə Nazirliyin tibbi idarə və müəssisələrinin rəhbərlərinə tapşırılıb.

Qeyd edək ki, ÜST Avropa Regional Bürosu 2020-ci ilin 20-26 aprel tarixlərində «Avropa İmmunlaşdırma həftəsi»nin keçiriləcəyini elan etmişdi. Azərbaycan da ÜST-nin Avropa regionuna daxil olan dövlət kimi bu təşəbbüsə qoşulub.

«İmmunlaşdırma həftəsi» çərçivəsində əvvəllər hər hansı səbəbə görə peyvənd təqvimi üzrə immunlaşdırmadan kənarda qalan uşaqlar peyvəndlərə cəlb edilib. COVID-19 infeksiyasına görə epidemioloji vəziyyəti nəzərə alaraq, uşaqların tibb müəssisələrinə kütləvi axınının qarşısının alınması məqsədilə onlar peyvəndlərə növbəli dəvət olunub.

ÜST-nin dəstəyi ilə həftə ərzində peyvəndlərlə əhatə səviyyəsinə nəzarət məqsədilə Azərbaycanın rayonlarında monitorinq keçirilib, əhali arasında maarifləndirmə işləri aparılıb.

## ÜST koronavirusa qarşı immunitet vəsiqələri ilə bağlı xəbərdarlıq edib

**Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) bir sıra ölkələrin koronavirus infeksiyasından sağalmış şəxslərə immunitet vəsiqəsi vermək təklifinə qarşı çıxıb.**

Beynəlxalq təşkilatın rəyinə görə, sağalmış insanların qanında yaranan anticisimlərin xəstəliyə qarşı immunitet yaratması hələ elmi cəhətdən əsaslı şəkildə təsdiqini tapmayıb. Ona görə də COVID-19 xəstəliyindən sağalan və qanlarında müvafiq anticisimlər olan şəxslərin mütləq şəkildə ikinci dəfə infeksiyaya tutulmayacağı isbat olunmayıb.

Təşkilatdan bildirilib ki, müxtəlif ölkələrdə immunitet vəsiqəsi ilə insanların əmək fəaliyyətinə geri dönüşünə şərait yaradılması cəhdi başadüşüləndir. Lakin hazırda dünya bazarında mövcud olan fərqli anticisim testlərinin dəqiqliyi və etibarlılığı da sual doğurur. Bəzən isə testlər elmə çoxdan məlum olan və normal soyuqdəyməyə yol açan başqa koronaviruslara reaksiya verir və nəticədə yanlış olaraq pasiyentin COVID-19-a qarşı immun olması fikri yaranır.

Qeyd edilib ki, ÜST tərəfindən dəstəklənən anticisim testlərinin əsas məqsədi əhalinin neçə faizində yeni növ koronavirusa qarşı immunitet yarandığını müəyyənləşdirməkdir. Lakin bu testlər o nəticəyə gəlməyə əsas vermir ki, qanında anticisimlər təsdiqlənən şəxslər ikinci dəfə infeksiyaya yoluxmadan sığortalıdırlar.

Yekunda bildirilib ki, yuxarıda sadalanan səbəblərə görə immunitet vəsiqələri yoluxma təhlükəsinin artması riskini yarada bilər, bu baxımdan bu kimi addımlardan çəkinmək lazımdır.

**Elgün NİFTƏLİ,**
**AZƏRTAC-ın xüsusi müxbiri**
*Cenevrə*

## Abunə kampaniyası başladı!



**2020-ci ilin II yarısı üçün abunə kampaniyası İyun ayının 30-dək davam edəcək. Bir nüsxənin 6 aylıq abunə haqqı 7 manat 50 qəpikdir. Abunə haqqı ya redaksiyada ödənməli, ya da qəzetin aşağıdakı bank hesabına köçürülməlidir:**

**«Tibb qəzeti» VÖEN 1400410961**
**İBAN AZ43İBAZ 38090019449323220204**
**h/h38090019449323220204**
**Bank: Beynəlxalq SKB-nin Mərkəzi filialı**
**Kod: 805722**
**AZ03NABZ 01350100000000002944**
**BANK (VÖEN)9900001881**
**S W İ F T İBAZAZ 2 X**

**Baş redaktor:**
**N.MƏCİDOVA**

**Baş redaktorun müavini:**
**S.NƏBİYEVA**

**Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.**

**Təsisçi:**
**Azərbaycan Respublikası Səhiyyə Nazirliyi**

**Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.**

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır. Qeydiyyat nömrəsi: B92**

**Ünvan: Cəfər Cabbarlı, 34. 1-ci mərtəbə**
**E-mail: tibbqazeti@mail.ru**
**Tel./fax: 596-06-61**

**Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və «CBS polygraphic production» mətbəəsində çap olunmuşdur.**
**İndeks: 1065**
**Tiraj: 21900**







# Siz hansı suyu içirsiniz?




**Adətən, yay fəslində çoxlu su içirik. Təbii ki, istidir və orqanizm çoxlu miqdarda su tələb edir. Biz nə edirik? Mağazaya yollanırıq və diqqətlə nəzər yetirmədən rəflərdə olan istənilən su şüşəsini alırıq. Düşünmək olar ki, içməli suda təhlükəli nə ola bilər?! Bir çoxları əmindir ki, içməli sudan sağlamlığa heç bir zərər gələ bilməz. Amma bu, göründüyü qədər sadə və asan deyil.**

İlk baxışdan, qablaşdırılmış suyun istehsalı sadə bir proses kimi görünə bilər — istehsalçı suyu çıxarır və konteynerlərə doldurur. Yalnız burada bəzi məqamları bilmək çox vacibdir. Məsələn, bu suyun mənbəyi haradan gəlir və onu istifadə ediləcək vəziyyətə hansı üsulla gətirirlər?

Su istehsalının müxtəlif üsulları var. Onlardan biri suyun tamamilə, yəni sıfır dərəcəsində təmizlənməsi və sonra süni üsulla minerallaşdırılmasıdır. Müasir su təmizləmə texnologiyaları, əsasən «əks osmos» üsulu, demək olar ki, steril su almağa imkan verir. Ancaq tam təmiz su da sağlamlıq üçün faydalı deyil. Təəssüf ki, distillə edilmə xüsusiyyətlərinə yaxınlaşaraq, su bu vəziyyətdə həm zərərli, həm də faydalı maddələrdən məhrum olur. Belə suların haradan əldə edilməsi əhəmiyyət daşımır – istər yeraltı su qaynaqlarından, istərsə də su borularından. Hər iki halda bu sular istifadə üçün faydalı deyil. Belə su iki mərhələdə istehsal olunur: ilk növbədə, su borularından gələn su təmizlənərək distillə edilmiş su vəziyyətinə gətirilir, sonra tərkibi kimyəvi qida maddələrindən ibarət olan minerallar tətbiq olunur.

Süni minerallar əlavə edilmədən, daha təbii və az emal edilmiş suyu seçmək daha yaxşıdır. Təbii üsulla, minimum müdaxilə olunan və təbii su mənbəyindən əldə edilən suyu!

Tam təbii mineral suların tərkibi alındığı təbii mənbədə olduğu kimidir. Tərkibində daha çox və ya az duz ola bilər, amma həkim məsləhəti ilə bu suyu süfrə suyu və ya müalicəvi su kimi də içmək olar. Yalniz bu, tam təbii su olmalıdır!

Azərbaycan su bazarında qabaqcıl şirkətlərdən biri olan - «TAC» əhalini daha keyfiyyətli su ilə təmin etmək üçün yaradılmışdır. Şirkətin əsas şüarı: «Keyfiyyətli su — keyfiyyətli həyat»dır. Şirkətin üstünlüyü istehlakçını təbii və yüksək keyfiyyətli «canlı» su ilə təmin etməsidir. Tam bu səbəbdən, «TAC» şirkətinin aparıcı məhsulu olan **«Aquavita»**nın istehsalı prosesində prinsipial olaraq «əks osmos» qurğusundan istifadə edilmir.

Təbii su olan **«Aquavita»** gündəlik istifadə üçün nəzərdə tutulmuşdur. Bu su Bakı şəhərindən 200 kilometr uzaqlıqda, Xaçmaz rayonunun ekoloji cəhətdən təmiz meşəsində, kənd massivi Susayqışlaqda yerləşən artezian quyularının 420 metr dərinliyindən çıxarılır.

Su ən qədim süxur qatlarından keçərək, zəif mineralizasiya olunub əlavə faydalı xüsusiyyətlərlə zənginləşir. Zavoda təbiətin bəxş etdiyi təbii mineralların qorunmasını təmin edən xüsusi yük tankerlərində çatdırılır. Şüşələnmədən əvvəl su öz tərkibini dəyişmədən incə və qalın təmizləmə filtrlərindən keçir və ultrabənövşəyi şüalarla dezinfeksiya edilir. **«Aquavita»** suyu heç bir distillə mərhələsini keçmədən, mineral kompleks tərkibini dəyişmədən, təbiiliyini qoruyub saxlayır.

**Su sağlamlığımız üçün çox vacib həyati rol oynayır. İndiki mövcud ekoloji vəziyyətdə insan orqanizminin təbii və təmiz mineral suya ehtiyacı var. Buna görə də, hansı suyu içdiyinizi düşünün — təbii mineral tərkibli «canlı» su və ya distilləşdirilmiş, qida əlavələri ilə «süni» su! Əbəs yerə demirik ki, hər şeydən vacib sağlamlıqdır, qalan hər şey ikinci dərəcəli!**